**AZƏRBAYCAN RESPUBLİKASININ
MİLLİ ARXİV İDARƏSİ**

**НАЦИОНАЛЬНОЕ АРХИВНОЕ УПРАВЛЕНИЕ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

# ZAQAFQAZİYA SEYMİNİN MÜSƏLMAN FRAKSİYASI VƏ AZƏRBAYCAN MİLLİ ŞURASI İCLASLARININ PROTOKOLLARI
## 1918-ci İL

# ПРОТОКОЛЫ ЗАСЕДАНИЙ МУСУЛЬМАНСКИХ ФРАКЦИЙ ЗАКАВКАЗСКОГО СЕЙМА И АЗЕРБАЙДЖАНСКОГО НАЦИОНАЛЬНОГО СОВЕТА
## 1918 г.

**"Adiloğlu" nəşriyyatı
Bakı 2006**

**MÜQƏDDİMƏNİN**
**MÜƏLLİFİ VƏ MƏSUL REDAKTOR: A.Ə. PAŞAYEV**

**ГЛАВНЫЙ РЕДАКТОР**
**И АВТОР ПРЕДИСЛОВИЯ: А.А.ПАШАЕВ**

A 40 AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ ARXİV İDARƏSİ

ZAQAFQAZİYA SEYMİNİN MÜSƏLMAN FRAKSİYASI VƏ AZƏRBAYCAN MİLLİ ŞURASI İCLASLARININ PROTOKOLLARI 1918-ci il

A 0503771035 sifarişlər
121-2006

Bakı, "Adiloğlu" nəşriyyatı - 2006, 216 səh.

## MÜNDƏRİCAT

Müqəddimə

Zaqafqaziya Seyminin müsəlman fraksiyasının protokolları

Azərbaycan Milli Şurasının protokolları

**ƏLAVƏLƏR**

Qısaltmaların siyahısı

Qeydlər

Adlı göstərici

Coğrafı adların göstəricisi

## СОДЕРЖАНИЕ

Предисловие

Протоколы заседаний мусульманских

фракций Закавказского сейма

Протоколы заседаний Национального

Совета Азербайджана

**ПРИЛОЖЕНИЯ**

Список сокращений

Примечания

Именной указатель

Указатель географических названий

# MÜQƏDDİMƏ

Birinci dünya müharibəsində zəifləmiş “xalqlar həbsxanası” olan Rusiyada yaranan şərait 1917-ci il fevral inqilabının qələbəsi ilə başa çatdı və Rusiyada üç yüz ildən yuxarı hökm sürən Romanovlar sülaləsini tarix səhnəsindən süpürüb atdı.

Fevral inqilabı qələbəsinin ilk günlərində, daha doğrusu, 1917-ci il martın 9-da Rusiya Dövlət Dumasındakı Zaqafqaziyadan olan deputatların təşəbbüsü ilə Rusiyada yaranmış müvəqqəti hökümətin qərarı ilə Zaqafqaziyanı idarə etmək üçün Duma deputatlarından V.A.Xarlamovun sədrliyi, M.Y.Cəfərov, M.İ.Papacanov və A.İ.Çxenkelinin üzvlüyü ilə xüsusi komitə (“Azakom”) yaradılır. Xüsusi Zaqafqaziya Komitəsinin təşkili 1917-ci il martın 30-da başa çatır.

Sonrakı tarixi hadisələr çox sürətlə inkişaf edir. Rusiyada müvəqqəti hökumətlər bir-birini əvəz edir. Bolşeviklərin siyasi hakimiyyəti ələ keçirmək üçün bir neçə dəfə göstərdikləri cəhd nəhayət ki, 1917-ci ilin oktyabrında baş tutur. Petroqradda hakimiyyəti ələ keçirən bolşeviklər Rusiya Sovet Federativ Sosialist Respublikasını elan edirlər. Bolşeviklərin Petroqarddakı çevrilişi Zaqafqaziyada rəğbətlə qarşılanmır. Nəticədə Zaqafqaziyada 1917-ci il noyabrın 15-də J.P.Qeqeçkorinin başçılığı ilə bu ərazidə yaşayan üç xalqın (Azərbaycan, gürcü və erməni) nümayəndələrindən ibarət Zaqafqaziya komissarlığı yaradılır.

1917-ci il noyabrın 26-28-də isə Qafqazdan Rusiya Müəssislər Məclisinə seçkilər keçirilir. Seçkilər nəticəsində səslər Zaqafqaziyadakı əsas partiyalar arasında aşağıdakı nisbətdə bölüşdürülür: gürcü menşevikləri - 661.934 səs, “Müsavat” partiyası - 645.816 səs, “Daşnaksütyun” partiyası - 558.400 səs, müsəlman sosialist bloku - 159.770 səs, eserlər 117.522 səs, bolşeviklər - 95.581 səs, “Hümmət” - 84.748 səs və “İttihad” - 66.504 səs.

Nəticədə Müsəlman Milli Komitəsi və “Müsavat” partiyası tərəfindən Rusiya Müəssislər Məclisinə - Həsən bəy Ağayev, Məmməd Yusif Cəfərov, Xosrov bəy Sultanov, Məmməd Əmin Rəsulzadə, Əli Mərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyov, Qazı Əhməd Məmmədbəyov; müsəlman sosialist blokundan - İbrahim Heydərov, Əlixan Qantəmirov, Aslan bəy Səfikürdski; “İttihad” partiyasından - Sultan Məcid Qənizadə və “Hümmət”dən isə Cəfər Axundov seçilirlər. Rusiya Müəssislər məclisinə Zaqafqaziyadan 34 deputat seçilir ki, onlardan da 12 nəfəri müsəlmanlar idi. (Всероссийское учредительное собрание (1917 год в документах и материалах, Москва-Ленинград, 1930 г.)

1918-ci il yanvarın 5-də açılaraq elə həmin gündə bolşevik hökuməti tərəfindən qovulmuş Müəssislər Məclisinə Zaqafqaziyadan seçilmiş deputatlar yol bağlı olduğu üçün Rusiyaya gedə bilməmişlər. Zaqafqaziyadan Rusiya Müəssislər Məclisinə seçilmiş deputatlar 1918-ci il fevralın 14-də ölkədə hakimiyyət orqanı hakimiyyət orqanı kimi Zaqafqaziya Seymini yaratmağı qərara alırlar. Seymdə

Rusiya Müəssislər-Məclisinə seçkilər yaratmağı qərara alırlar. Seymdə Rusiya Müəssislər-Məclisinə seçkilər zamanı hər partiyanın aldığı səsin sayına müvafiq olaraq Zaqafqaziya Seymindəki nümayəndələrin sayı artırılır. Rusiya Müəssislər Məclisinə seçkilər zamanı aldıqları səslərin müqabilində partiyalar öz nümayəndələrinin sayını artırırlar. "Müsavat" və demokratik bitərəflər qrupundan 30 nəfər, müsəlman sosialist blokundan 7 nəfər, "İttihad" partiyasından 3 nəfər, müsəlman sosialist-demokrat menşevik partiyası "Hümmət"dən isə 4 nəfər Zaqafqaziya Seyminə daxil edilir. Nəticədə Zaqafqaziya Seymində 44 azərbaycanlı nümayəndə iştirak edərək, seymin müsəlman fraksiyasını yaradırlar. Bunlar aşağıdakı şəxslər idi: "Müsavat" və demokratik bitərəflər qrupundan: Məmməd Yusif Cəfərov, Əli Mərdan bəy Topçubaşov, Məmməd Əmin Rəsulzadə, Nəsib bəy Yusifbəyov, Həsən bəy Ağayev, Xosrov Paşa bəy Sultanov, Məmməd Həsən Hacınski, Mir Hidayət Seyidov, Fətəli Xan Xoyski, Xəlil bəy Xasməmmədov, Qazı Əhməd Məhəmmədbəyov, Aslan bəy Qardaşov, Şəfi bəy Rüstəmbəyov, Cavad Məlik-Aslanov, Mustafa Mahmudov, Mehdi bəy Hacıbababəyov, Hacı Molla Səlim Axundzadə, Mehdi bəy Hacınski, Xudadat bəy Məlik-Aslanov, Müseyib Axicanov, Lütfəli bəy Behbudov, Firudin bəy Köçərli, İbrahim ağa Vəkilov, Həmid bəy Şahtaxtinski, Rəhim bəy Vəkilov, Ələsgər bəy Mahmudbəyov, Yusif Əfəndi Əfəndizadə, Mirzə Cəlal Yusifzadə, Məmmədrza ağa Vəkilov, İslam bəy Qəbulov.

Müsəlman sosialist blokundan: İbrahim bəy Heydərov, Əlixan Qantəmir, Aslan bəy Səfikürdski, Əhməd Cövdət Pepinov, Bağır Rzayev, Camo Hacınski, Məhəmməd Məhərrəmov.

Rusiyada müsəlmançılıq – "İttihad" partiyasından: Sultan Məcid Qəniyev, Mir Yaqub Mehdiyev, Heybətqulu Məmmədbəyov.

Müsəlman sosial-demokrat menşevik "Hümmət" partiyasından: Cəfər Axundov, İbrahim Əbilov, Əkbər ağa Şeyxülislamov, Səməd ağa Ağamalov. (Адрес - Календарь Азербайджанской Республики на 1920 г. стр. 8-9).

Zaqafqaziya Seymi Müsəlman fraksiyasının ilk müstəqil iclası 1918-ci il martın 16-da M.Ə.Rəsulzadənin sədrliyi ilə keçirilir (sən. №1). Bu iclasda Seymin cəmi 15 nəfər üzvü iştirak edirdi.

Bütün müsəlman fraksiyasının Şimali Qafqaz dağlılarının nümayəndə heyəti ilə birlikdə keçirdikləri ikinci iclası isə həmin il martın 25-də M.Y.Cəfərovun sədrliyi ilə keçir (sən. №2). Bu iclasda fraksiyanın 13 üzvü ilə yanaşı, Şimali Qafqaz dağlılarının nümayəndələri - Zubair Temurxanov, Maqomed Qazi Dibirov, Qaydar Bammatov, Topa Çermoyev və qraf Lijanov (İnquşetiya nümayəndəsi) iştirak edirdilər. Gündəlikdə duran əsas məsələ isə Şimali Qafqazın Zaqafqaziyaya birləşdirilməsi məsələsi idi. Bu məsələ barədə Şimali Qafqaz nümayəndə heyəti üzvlərindən Qaydar Bambatov və qraf Lijanov məlumat verirlər. Onlar bu məsələ barədə Seymin gürcü və erməni nümayəndələri ilə də görüşdüklərini, gürcülərin bu məsələni tam dəstəklədiklərini ermənilərin isə bu işə

razı olmadıqlarını bildirirlər. Müsəlman fraksiyası adından çıxış edən N.Yusifbəyov bu təklifi tamamilə bəyəndiklərini bildirərək dağlılarla Zaqafqaziya türkləri arasındakı münasibət məsələlərini müəyyənləşdirməyi təklif edir. Topa Çermoyev dağlıların federativ və ya konfederativ bufer dövlət kimi Zaqafqaziya ilə birləşdirməyi təklif edir. Ş.Rüstəmbəyov bu məsələnin həlli üçün dağlılardan və Zaqafqaziya türklərindən ibarət bir komissiya yaratmağı təklif edir. Komissiyaya fraksiya tərəfdən F.X.Xoyski, N.Yusifbəyov və A.Səfikürdski, dağlılar tərəfindən isə Q.Bammatov, T.Çermoyev və Q.Dibirov daxil olur.

Seymin müsəlman fraksiyasının martın 26-dan aprelin 3-ə qədər keçirilən iclaslarına M.Y.Cəfərov sədrlik etmişdi. Martın 26-da keçirilən iclas (sən. №3) Trapezundda keçirilən sülh konfransından qayıtmış Zaqafqaziya Seyminin nümayəndəsi Ə.Şeyxülislamovun qısa məruzəsi dinlənilərək Osmanlı imperiyasının Brest-Litovski sülhü ilə əlaqədar ona çatacaq əraziləri - Qars, Ərdahan və Batumu boşaltmaq barədəki ultimatumu müsəlman partiyalarının bu məsələyə münasibətdə taktiki məsələlərinin müzakirəsinə həsr olunur. Hərtərəfli müzakirədən sonra fraksiya yenə də əvvəlki mövqelərində qalaraq bu məqsədlə M.N.Hacınskini Trapezunda göndərməyi qərara alır.

Fraksiyanın martın 31-də keçirilmiş iclasında (sən. №4) isə Bakıda S.Şaumyanın rəhbərliyi ilə Sovet hakimiyyətinin silahlı qüvvələri adı altında daşnakların Bakıda törətdikləri qırğınla əlaqədar Seymin müsəlman fraksiyası üzvlərinin çoxunun yerlərə getdiklərinə görə iştirakçıların sayı az olsa da, hər partiyadan olan nümayəndələr kifayət qədər olduğundan iclas öz işini davam etdirir. Gündəlikdə duran əsas məsələ Zaqafqaziya hökuməti adından Türkiyəyə müharibə elan edilməsi ilə bağlı əsas müsəlman partiyalarının bu məsələyə münasibətini müəyyənləşdirmək idi. Məsələyə münasibətdə Seymin müsəlman fraksiyasının bütün partiyaları yekdil fikirdə deyildi. “Hümmət” partiyasının nümayəndələri bu məsələdə gürcü menşevikləri ilə həmrəy, müsəlman sosialistlər blokunun nümayəndələri isə müharibənin davam etdirilməsinin əleyhinə olduqlarını və Seymin bu məsələyə həsr edilmiş iclasında müstəqil olaraq çıxış edəcəklərini bildirirlər.

Bu məsələyə münasibətdə yalnız “Müsavat” partiyası, partiyasızlar qrupu və “İttihad” partiyasının nümayəndələri ümumi razılığa gələrək qətnamə qəbul edir və Seymin iclasında onun elanını Ş.Rüstəmbəyliyə həvalə edirlər. Qətnamədə deyilirdi: “Türkiyə ilə müharibəni davam etdirmək məsuliyyətini üzərinə götürməməklə və onun ağırlıqlarının Zaqafqaziyada demokratiyanın inkişafına təsirini, ölkənin daxili həyatında yaranmış şəraiti nəzərə alaraq “Müsavat” partiyası fraksiyası, partiyasızlar qrupu və Rusiyada müsəlmançılıq partiyası “İttihad” rəhbər partiyalar tərəfindən müharibənin davam etdirilməsi məsələsinin müsbət şəkildə həll edildiyini nəzərə alaraq bəyan edir ki, öz tərəfindən bütün mümkün vasitələrdən istifadə edərək bu çətin işdə Zaqafqaziyanın başqa xalqlarına kömək

göstərəcək və müharibənin mümkün qədər əlverişli şəkildə dayandırılması üçün bütün tədbirlərdən istifadə edəcəkdir".

Zaqafqaziya Seyminin əsas qollarından biri olan müsəlman fraksiyasının neytral mövqeyi şəraitində Seymin martın 31-də qəbul etdiyi qərara görə Zaqafqaziya ilə Türkiyə arasında Trabzonda aparılan danışıqlar dayandırıldı və Türkiyəyə yenidən müharibə elan olundu. Zaqafqaziyanın müdafiəsi üçün üç nəfərdən ibarət fövqəladə komissiya təşkil edildi. Buraya baş nazir və müdafiə naziri olan J.Qeqeçkori, daxili işlər naziri N.Ramişvili və maliyyə naziri X.Karçikyan daxil edilir. Müharibə elanı ilə əlaqədar Seymin işini iki həftəliyə dayandırmaq, bu müddət ərzində ölkədə bütün səlahiyyətlərin üçlüyün əlində cəmləşdirilməsi qərara alınır. Bu isə müsəlmanları tamamilə işdən kənarlaşdırmaq və onları inkar etmək demək idi.

Müsəlman fraksiyasının ertəsi gün aprelin 1-də keçirilən növbəti iclası (sən. №5) Türkiyəyə müharibə elan olunması ilə əlaqədar olaraq üç nəfərdən ibarət fövqəladə komissiyanın təşkili və Seymin iclaslarının iki həftəliyə təxira salındığı barədə Ş.Rüstəmbəylinin məlumatı ilə açılır. İclas yaranmış vəziyyətlə bağlı olaraq Seymin müsəlman fraksiyasının taktikasını və hərəkət xəttini müəyyənləşdirmək məsələsini müzakirə edir.

Q.Məmmədbəyov çıxış edərək bildirir ki, hökumət bu addımı ilə müsəlmanların mənafeyinə etinasızlıq göstərir və onların rolunu həm hökumətdə, həm də Seymdə ləğv etmiş olur. Ona göra də bizim Tiflisdə qalaraq gələcəkdə gürcülərlə və ermənilərlə birlikdə işləməyimiz ağlasığmaz və mənasız bir işdir. Bununla əlaqədar Zaqafqaziya Seymi və hökumətindən çıxmağı, Şimali Qafqazdan Dağıstan, Çeçenistan və İnquşetiya nümayəndələrini dəvət edərək bir yerə yığışıb gələcək taleyimizi müzakirə etməliyik.

M.C.Cəfərov təklif edir ki, Trapezunddan sülh nümayəndə heyəti qayıdana qədər müsəlmanların Seymdən çıxması məsələsi müzakirədən çıxarılsın. O, göstərir ki, müsəlmanlar bütün hakimiyyətin 3 nəfərdən ibarət hərbi kollegiyanın əlinə verilməsi ilə razılaşa bilməz. Bu məsələ ilə əlaqədar X.Məlik-Yeqanov, C.Hacınski və H.Ağayev də çıxış edirlər. C.Hacınskinin dediklərinə görə hərbi kollegiyaya - üç nazir – hərbi, daxili işlər və maliyyə nazirləri daxil idi ki, buradada müsəlmanların nümayəndəsi yox idi. H.Ağayev bu barədə bildirir ki, Seymin bütün hüquqları hərbi kollegiyaya verilərsə, onda müsəlmanların vəziyyəti ən böhranlı şəkil alar. Bu məsələ ilə bağlı fraksiya aşağıdakı üç maddədən ibarət qərar qəbul edir. Seymin fəaliyyətində fasilə verilməsinə bütün vasitələrlə etiraz etmək; əgər Seym buraxılarsa, onda onun hüquqlarından hansılarının hökumətə veriləcəyi, hərbi kollegiyanın hansı hüquqlara malik olacağı, onun hökumət qarşısındakı nə kimi məsuliyyət daşıyacağı müəyyənləşdirilsin; əgər hərbi kollegiyaya fövqəladə səlahiyyətlər verilərsə və o, Seym öz işini bərpa etdikdən sonra onun qarşısında hesabat verəcəksə, onda müsəlman nazirlər hökumətin tərkibindən çıxmalıdır.

Fraksiyanın aprelin 3-də keçirilmiş növbəti iclasında Batumdan gəlmiş Zaqafqaziya sülh nümayəndə heyətinin üzvü X.Xasməmmədovun məruzəsi dinlənilir (sən. №6). Məruzəçi bildirir ki, Türkiyə nümayəndə heyəti Zaqafqaziyanın müstəqilliyini o vaxt tanıyacaq ki, Zaqafqaziya hökuməti Qars, Ərdahan və Batumun Türkiyəyə birləşdirilməsinə razılıq versin. Türklərin tələbi o qədər ciddi idi ki, Zaqafqaziya nümayəndə heyəti əsaslı güzəştə getməyə məcbur oldu. Lakin nümayəndə heyətinin bu barədə Tiflisə şifrəli teleqramına B.Sereteli, N.Jordaniya və N.Ramişvilidən alınmış cavabda deyilirdi ki, Batumun güzəştə gedilməsi həm milli və həm də partiya nöqteyi-nəzərincə özünə sui-qəsdə bərabərdir. Tiflisdən alınan digər teleqramla nümayəndə heyətindən təcili olaraq Trapezundu tərk etmək tələb olunur. A.Çxenkeli isə türklərlə tamamilə əlaqəni kəsməmək məqsədilə nümayəndə heyətinin Zaqafqaziya hökumətindən aldığı təlimata əsasən geri qayıtmağa məcbur olduqlarını bildirir.

Aprelin 4-dən mayın 3-nə qədər müsəlman fraksiyasının iclasları M.Ə.Rəsulzadənin sədrliyi ilə keçirilmişdir. Müsəlman fraksiyasının aprelin 4-də keçirilən iclasında (sən. №7) X.Xasməmmədov və F.X.Xoyski Almaniyanın şərq siyasəti ilə yaxından tanış olan, İranda Almaniyanın keçmiş konsulu, Tiflis Universitetinin professoru Şreyderlə görüşləri haqqında məlumat verirlər. Söhbət Zaqafqaziyanın siyasi gələcəyi barədə gedir və Şreyder gələcəkdə mərkəzi dövlətlərdən - Almaniya və Türkiyə ilə yaxınlaşmağı məsləhət görür. Çünki bu qrupa daxil olan digər dövlətlər Zaqafqaziya ilə maraqlanmır. Onlar Şreyderə bəyan edirlər ki, Zaqafqaziyada başqalarının bu məsələyə münasibətindən asılı olmayaraq, Zaqafqaziya türklərinin meyli Türkiyəyədir ki, bu da alman-türk ittifaqı istiqamətinədir. Ermənilərin Türkiyəyə qarşı barışmaz mövqeyinə münasibəti ilə də maraqlanırlar. Seymin üzvləri X.Xasməmmədov və F.X.Xoyski bildirirlər ki, bu cür münasibət Zaqafqaziya türkləri tərəfindən heç cür qəbul edilə bilməz. Şreyderin ölkədə anarxiyanın qarşısını almaq və qayda-qanun yaratmaq üçün xarici qüvvələrin dəvət edilməsi imkanından istifadə edə bilərsinizmi sualına əgər bu yardım Türkiyə hərbi hissələri tərəfindən olarsa, mümkündür cavabı verilmişdir. Bu cavabdan razı qalan Şreyder bildirmişdir ki, gələcəkdə dünya hadisələrinin inkişafı Almaniya ilə İngiltərə arasındakı münasibətlərdən asılı olacaq. Ona görə də Almaniya imkan verməк istəməz ki, Rusiya bir daha Zaqafqaziyaya qayıtsın. Çünki bu ingilislərin həmin bölgədə nüfuzunun artmasına səbəb ola bilər.

Müsəlman fraksiyasının aprelin 6-da keçirilən iclası (sən. №8) bütünlüklə müsəlman sosial-demokrat “Hümmət” partiyasının gürcü menşeviklərinin son taktikasına ikili münasibət məsələsinin müzakirəsinə həsr edilir. Seymin üzvü Əlixan Qantəmirov qeyd edir ki, belə mürəkkəb siyasi bir şəraitdə Bakıda müsəlman demokratiyası bolşevik-erməni bandasının əli ilə məhv edildiyi bir vaxtda “Hümmət” partiyası Rusiya demokratlarına müraciət edərək onlardan kömək xahiş etmək cəhdi Zaqafqaziyanı da bolşeviklərin qan dəryasında boğdurmaq deməkdir. "Hümmət"çilər adından çıxış edən Səməd Ağamalov

Ə.Qantəmirovun sualına birbaşa cavab verməkdən yayınaraq ümumi sözlərlə "Hümmət" partiyasının demokratikliyini nəzərə çatdırmağa cəhd edir. Həmin partiyanın digər üzvü Ç.Axundov isə bu suala birmənalı cavab verərək bildirir ki, "Biz müstəqil Zaqafqaziyanın nə şimala, nə də cənuba meylinin tərəfdarı deyilik. Bolşeviklərə münasibətdə isə "Hümmət"çilər onlarla amansızcasına mübarizə aparmağa hazırdı. Eyni zamanda isə, bütün qüvvələrini başqa xalqların mötədil demokratları ilə əl-ələ getməyə hazırdı".

N.Yusifbəyov və H.Ağayev ona bildirirlər ki, gürcü menşevikləri gürcü millətçiliyi siyasəti yeridir, siz isə onların quyruğunda sürünürsünüz. S.Ağamalov cavab verir ki, "Demokratiyanın mənafei üçün biz Zaqafqaziyanın müstəqilliyi tərəfində dururuq. Bizim başlıca məqsədimiz müstəqillikdir". Seymin "Hümmət" partiyasından olan digər üzvü N.Camalbəyov bildirir ki, "əgər müstəqillik olmayacaq və şimaldan buraya bolşeviklər gələcəksə, onda biz bolşeviklərin əleyhinə olub, bu halda Türkiyəyə meyl edəcəyik, əgər şimaldan həqiqi demokratiya gələrsə, biz onlarla birlikdə türklərin əleyhinə olacağıq".

Onlara cavab verən M.Ə.Rəsulzadə bildirir ki, "biz əldə silah mübarizə aparacağıq ki, necə olursa-olsun Zaqafqaziya bir də Rusiyaya geri qayıtmasın". N.Camalbəyov soruşur ki, "mən sizinlə birlikdə bu mübarizəyə hazıram, ancaq öz gücünüzü göstərin". M.Ə.Rəsulzadə cavab verir ki, "biz öz qüvvəmizə inanırıq və ağır dəqiqələrdə cənub-şərqdən kömək çağıra bilərik". N.Camalbəyov bildirir ki, "mən türk ordusundan bizim xalqımız üçün azadlıq gözləmirəm". Müzakirələr nəticəsində Seymin müsəlman fraksiyasının digər üzvləri "Hümmət" partiyasının nümayəndələri ilə ümumi nəticəyə gələ bilmirlər. Nəticədə fraksiyanın aprelin 7 və 9-da keçirilmiş iclaslarında "Hümmət" partiyasından olan seym üzvləri iştirak etməmişlər.

Aprelin 7-də çağırılmış Seymin müsəlman fraksiyasının fövqəladə iclası (sən. №9) Hacıqabul stansiyasında polkovnik knyaz Maqalovun hərbi dəstələrinin məğlubiyyəti ilə əlaqədar alınmış həyəcanlı teleqramın müzakirasinə həsr olunmuşdur. Çıxış edən bütün natiqlər Hacıqabul məğlubiyyətinin başlıca səbəbini menşeviklər partiyasında, onun hökumətdəki nümayəndələrinin bolşeviklərə qarşı ikibaşlı siyasətində görürlər. Belə ki, bütün hakimiyyəti öz əllərində cəmləşdirmiş menşeviklor polkovnik-knyaz Maqalovun rəhbərliyi ilə hərbi dəstəni bolşevik hökümətinə qarşı mübarizə üçün göndərmiş, Maqalov hər gün hökumətə teleqramlar göndərərək bronlaşdırılmış qatar, top, top gülləsi, pulemyot və patron tələb etsə də, hökumət buna əhəmiyyət vermir və bu sursatların göndərilməsi üçün heç bir tədbir görmürdü.

Seymin üzvü M.Məhərrəmov və yollar naziri X.Məlik-Aslanov bu işə müvəkkil təyin olunsalar da, bildirirlər ki, yuxarıda göstərilən hərbi sursatı ala bilmirlər. Seymin üzvü N.Yusifbəyov qeyd edir ki, görünür, o şəxslər ki, mübarizə üçün bizə hər şey vəd etmişlər, yalan deyiblər. Türk atalar sözlərində deyildiyi kimi, biz "yalançını axıra qədər qovduq". Ancaq bir nəticəsi olmadı. Lazımdır ki,

elə bu gün hökumət qarşısında ultimatum qoyaq və Tiflisi tərk edək. Sonrakı natiqlərdə Nəsib bəyin fikirlərini müdafiə edərək müsavatdan olan hökümət üzvlərinin istefasını tələb edirlər.

Seymin üzvü yollar naziri X.Məlik-Aslanov isə belə bir təəssüfedici faktı qeyd edir ki, hakimiyyətin bir tərəfində hamı durub, o biri tərəfində yalnız müsəlmanlar. Birincilərin tərəfində texniki və maddi üstünlük, bizim tərəfimizdə isə çoxluqdur. Faktiki olaraq, təsrid edilməmizə və ağır vəziyyətimizə baxmayaraq, çətin ki, belə bir şəraitdə əlaqələri kəsməklə bir şey qazanarıq. Bolşeviklərdən bizə aman yoxdur, onlar bizi hələ ki, əziblər. Menşeviklər də düşmən cəbhəfə durur. əgər bizi bir tərəfdə əzirlərsə, başqa tərəfdə möhkəmlənmək lazımdır. Əgər Türkiyə ilə müharibə məsələsi həll olunarsa, hələ ki, menşeviklərlə danışmaq üçün imkanlar var.

N.Yusifbəyov öz təklifində israrlı olaraq tələb edir ki, menşeviklərə və hökümətə ultimatum verilməli və onun başlıca maddəsi isə Zaqafqaziyanın müstəqilliyinin elan olunmasıdır.

Mötədil mövqedən çıxış edən M.Ə. Rəsulzadə təklif edir ki, Trapezund sülh nümayəndə heyətinin nöqteyi nəzərində dayanan menşeviklər arasındakı cərəyandan istifadə etmək lazımdır. Seymin üzvü A.Çxenkeli ilə danışmaq lazımdır. Qalanı daxildən tutmaq lazımdır. Seymin üzvü X.Xasməmmədov A.Çxenkeli ilə xarici işlər naziri və hökumət nümayəndəsi kimi deyil, gürcü Milli Şurasının üzvü və gürcü siyasətinə rəhbərlik edən bir şəxs kimi söhbət aparmalıdır. Çünki indi Zaqafqaziya hökuməti yoxdur, yalnız ali Müdafiə Şurası adı ilə J.Qeqeçkori, X.Karçikyan və N.Ramişvilidən ibarət erməni və gürcü diktaturası var.

Seymin üzvü F.X.Xoyski bu danışıqlara ümid bəslədiyini bildirir və göstərir ki, əgər bu danışıqlardan da bir şey alınmasa, onda biz xaricdən kömək çağırmağa məcbur olacağıq. O, əməli əhəmiyyəti olan təcili tədbirlər görmək üçün Seymin üzvləri N.Yusifbəyov, M.Y.Cəfərov, Ş.Rüstəmbəyov və M.Mahmudovu, habelə Bakı quberniya komissarı M.Vəkilovu yerlərə göndərməyi təklif edir.

Müsəlman fraksiyasının aprelin 9-da keçirilən iclası (sən. №10) M.Ə.Rəsulzadənin Seymin növbəti iclasının gündəliyinin hazırlanması ilə məşğul olan fraksiyaların yığıncağının nəticələri barəsindəki məruzəsi ilə açılır. Gündəlikdə ilk məsələ olaraq Zaqafqaziyanın müstəqilliyinin elan olunması məsələsi qoyulur. İkinci isə Seym tərəfindən bəyənilmək üçün aşağıdakı qətnamə layihəsinin təqdim edilməsi nəzərdə tutulurdu: "Sülh nümayəndə heyətinin məruzəsini dinləyərək, ona dayandırılmış danışıqları davam etdirmək təklif edilir. Seym hökumətə tapşırsın ki, tezliklə hərbi əməliyyatların dayandırılması üçün tədbirlər görsün və sülh bağlasın".

Seymin üzvü X.Xasməmmədov və başqa natiqlər bildirirlər ki, Seym üzvlərinin çoxunun şübhəli və qeyri-sabit mövqelərini nəzərə alaraq bu cür gündəliklə müzakirələr zamanı daha çox sayıq və ehtiyatlı olmalıyıq ki,

Zaqafqaziyanı yenidən Türkiyə ilə müharibəyə sürükləməsinlər. Qətnamə layihəsinə əlavə edilsin ki, "o addımlar və o kurs ki, sülh nümayəndə heyəti tutmuşdu yenədə tutulur və bəyənilir". Bunsuz obyektiv şərait dəyişən kimi, bizdən gizli Leninlə danışıqlar aparan menşeviklərin bu məsələyə münasibəti də dəyişər, bizi istəmədiyimiz müharibəyə cəlb edə bilərlər. Əgər qətnaməyə bu təklif əlavə edilərsə, o, bizim əlimizdə hüquqi öhdəçilik kimi qəbul edilə bilər.

Seymin üzvü M.Ə.Rəsulzadə isə diqqəti daha çox məsələnin hüquqi cəhətdən formalaşdırılmasına deyil, onun mahiyyətinə yönəldərək göstərir ki, hakimiyyətin sülh nümayəndə heyətinin sədri A.Çxenkelinin əlinə keçməsi göstərir ki, sülh haqqında məsələ qəti olaraq həll edilib. Ancaq Zaqafqaziyanın müstəqilliyi elan olunarkən Batum, Qars və Ərdahan sancaqlıqları daxil olmadan, Kazak torpaqlarına qədər Şimali Qafqaz da daxil edilməklə ölkənin sərhədləri ümumi şəkildə əks etdirilməlidir. F.X.Xoyski isə qeyd edir ki, menşeviklərin dəyişkən mövqeyi xüsusi təəccüb doğurur. Menşeviklərin məsul nümayəndələri B.Sereteli səhər bir söz, axşam isə başqa söz deyir, başqa nümayəndələri N.Ramişvili isə axşam bir şey, onun səhərisi isə tamamilə ona əks olan şey söyləyir. Deyilənləri nəzərə alaraq iclas qərara alır: "1) Sülh nümayəndə heyətinin hərəkətlərinin bəyənilməsi; 2) Müəyyən olunmuş sərhədlər daxilində müstəqilliyin tanınması məsələsində israrlı olmaq. Bu və digər təklif qəbul edilməzsə, müstəqil deklarasiya ilə çıxış etmək".

Seymin müsəlman fraksiyasının aprelin 10-da keçirilmiş iclası (sən. №11) Seymin üzvü M.N.Seyidovun İrəvan quberniyasında azərbaycanlılara qarşı törədilmiş qırğınlar barədə məruzəsi ilə açılır. O, öz məruzəsində göstərir ki, təzəcə aldığımız teleqramlarda İrəvan quberniyasında iki ay bundan əvvəl müsəlmanlara qarşı başlamış qırğınların fasiləsiz olaraq davam etdirilməsi və son günlərdə daha da kəskinləşməsi barədə məlumat verilir. Məruzəçinin dediklərindən aydın olur ki, müsəlmanlara qarşı ermənilərin və erməni hərbi hissələrinin həyata keçirdiyi əməliyyatlar qarşıda müəyyən məqsədlər qoymuşdu. Həmin əraziləri qaçqın ermənilər üçün təmizləmək və yeni Ermənistan üçün ərazilər yaratmaq. Çıxış edən digər natiqlər bu məsələyə toxunmayaraq taleyin hökmünə buraxılmış 80 min nəfərdən yuxarı müsəlman qaçqını üçün kömək yollarını aramağa çalışmışlar. Onlar bildirirlər ki, qaçqın müsəlmanlara kömək komissiyası çox ləng işləyir. Bu günə qədər hətta hökumətin qaçqınlar üçün ayırdığı bir milyon rubl da alınmayıb. Qərara alınır ki, bu məsələ haqqında yeni yaradılmış hökumətin rəhbəri A.Çxenkelidən tələb edilsin ki, İrəvan quberniyasındakı müsəlmanların həyatı və əmlakının mühafızəsi məsələsi ilə bağlı ən təcili və təxirəsalınmaz tədbirlər görsün. Seym tərəfindən hökumətə aşağıdakı tələblərlə sorğu verilsin: a) Daxili işlər nazirinə tapşırılsın ki, müsəlmanlara kömək məqsədilə xüsusi komissiya göndərilsin; b) Bütün müsəlman qaçqınlar öz yerlərinə qaytarılsın; v) Ərzaq nazirliyinə tapşırılsın ki, onlara təcili ərzaq köməyi göstərsin; q) Ermənilərin təşkil

etdiyi azğınlaşmış hərbi hissələr buraxılsın; d) Qaçqınların vəziyyəti və sayı müəyyən edilərək onlar üçün əlavə vəsait ayrılsın".

Müsəlman fraksiyasının aprelin 15-də keçirilmiş iclasında (sən. №12) erməni-müsəlman münasibətləri məsələlərinin müzakirə edilməsi nəzərdə tutulmuşdur. Məsələnin olduqca vacibliyini, iclasda iştirak edənlərinin azlığını nəzərə alaraq həmin məsələni Seymin müsəlman fraksiyası üzvlərinin daha çox iştirak edəcəyi iclasa saxlayırlar. Bu iclasda Seymin üzvü Ə.Qantəmirov Qars vilayətində son zamanlar müsəlmanlara qarşı baş verən soyqırım hadisələri barəsində məlumat verir. O, bildirir ki, yunan qaçqınların dediklərinə görə hücum edən türk ordusunun qarşısından geri çəkilən erməni hərbi hissələri və silahlanmış quldur dəstələri öz yolları üzərindəki müsəlman kəndlərini yer üzündən silirlər. Hər şeyi atəşlə yaxır, insanları güllələyir və qılıncdan keçirirlər. Təsvirə gəlməyəcək vəhşiliklər, azğınlıq və dəhşətlər törədilir. Qadınları lüt soyunduraraq "qalib erməni ordularının, süngüyə keçirilmiş südəmər uşaqlar şəklində qənimətləri ilə" keçəcəyi magistral yolların ətrafına düzürlər. Yunanlar bildirirlər ki, gərək qeyri-insani əsəblərin olsun ki, bu cəhənnəm əzablarına, ağıllarını itirmiş qadın və uşaqların ürəkparçalayan nalələrinə,köməksiz qocaların hönkürtülərinə dözə biləsən. Çox faciəli şəraitdə Murad bəy Xanmirzəyev həlak olmuş, Qars vilayətində çox tanınmış Şamil Ağa (Çamırlı kəndindən) əvvəlcə öz əli ilə arvadını və uşaqlarını öldürmüş, ancaq bundan sonra düşmənə təslim olmuşdur. Təxminən 82 kənd (əslində isə bu rəqəm daha çoxdur) təsvirə gəlməyəcək dərəcədə dağıdılmışdır. Qars vilayəti kapitan Movsesyanın və general Areşevin vəhşicəsinə qəddarlığı nəticəsində 1915-ci ilin əvvəllərində bu ərazilərdə baş vermiş dəhşətləri xatırladır. Hazırda bütün Qars vilayəti nəhəng qəbiristanlığa çevrilmişdi. Burada hər bir daş həmişəlik insani sifətlərini itirmiş ermənilərin vəhşi hərəkətlərinə şahidlik edə bilər.

Seymin müsəlman fraksiyasının 1918-ci il mayın 1-də keçirilən növbəti iclası (sən. № 13) Trapezunddakı sülh konfransında Zaqafqaziya nümayəndə heyətinin üzvü M.N.Hacınskinin danışıqların gedişi barədə məlumatını dinləməklə açılır. O qeyd edir ki, bizim nümayəndələr bütün güclərini Türkiyə nümayəndə heyətini razı salmağa yönəltmişdilər ki, onlar Batumu Zaqafqaziyaya güzəştə getsinlər. Bunun üçün çoxlu səbəblər göstərirdik. Əgər Batum məsələsində güzəştə gedilməsə, nəticədə arzuolunmaz böyük fəsadlar yarana bilər. Ola bilsin ki, Zaqafqaziya daxilində millətlərarası müharibələr də qızışsın. Belə olarsa, Azərbaycan türklərinin müdafiəçisi olan Türkiyə onun qonşularla münasibətlərinin pozulmasının səbəbkarı ola bilər. Elə olarsa, onda Türkiyə Şərqi Zaqafqaziyanın içərilərinə qoşun yeridərək bizi tamamilə məhv olmaqdan xilas etməlidir. O vaxt biz hər tərəfdən düşmənlərlə - bolşeviklər, gürcülər və ermənilərlə əhatə olunarıq. Türklər bizim gətirdiyimiz bütün bu cür faktlara baxmayaraq, Batumu tutmaqda israrlı olduqlarını bildirdilər. Nəticədə Trapezund sülh danışıqları dayandırıldı. Türk ordusu müharibə elan edərək təcili Batumu tutmaq qərarına gəldi. Əlbəttə,

hadisələrin belə cərəyan etməsi Zaqafqaziya nümayəndə heyətini xüsusilə, onun sədri, sülh bağlanılmasının qızğın tərəfdarı A.Çxenkelini razı sala bilməzdi. Trapezundu tərk edərkən, o, heyətin üzvləri R.Veşopeli və Ə.C.Pepinovun Trapezundda qalması fikrini bəyəndi. Şimali Qafqazdan olan nümayəndələr - Q.Bammatov, T.Çermoyev və Q.Dibirov da Trapezundda qalırlar.

Digər natiq X.Xasməmmədov isə öz məlumatında bildirir ki, Trapezund sülh konfransı başa çatdıqdan sonra burada baş verən mühüm hadisə Ənvər paşanın Trapezund və Batuma gəlməsi oldu. Zaqafqaziya məsələsində Ənvər paşanın nöqteyi-nəzəri belə idi: "Müsəlman qəzaları olan Axalkalaki və Axalçiki əsrlərlə birləşməyə can atdıqları Türkiyəyə keçməli. Zaqafqaziyanın üç başlıca hissəsi olan Azərbaycan, Gürcüstan və Ermənistan isə başda ümumi Zaqafqaziya Seymi olmaqla Türkiyə ilə sıx ittifaqda federasiya və ya konfederasiya yaradırlar. Ənvər paşanın fikrincə, vahid Zaqafqaziya federasiyası yaradılmazsa, onda Türkiyə ilə ümumi sərhədi olan Azərbaycan Osmanlı imperiyası ilə Avstriya-Macarıstan timsalında ittifaq bağlaya bilər. X.Xasməmmədovun məlumatına görə, Ənvər paşa Türkiyənin Azərbaycana geniş şəkildə köməklik göstərməsi üçün ciddi addımlar atdığını xəbər verir. Ənvər paşanın qardaşı Nuru paşanın tez bir zamanda 300 nəfərlik hərbi müfəttişlərlə birlikdə Azərbaycana gələcəyini xəbər verir. X.Xasməmmədov bildirir: Ola bilsin ki, onlar artıq Təbrizdən Araz çayı istiqamətində hərəkət edirlər.

M.H.Hacınskinin sizin müstəqil Ermənistan yaradılmasına münasibətiniz sualına Ənvər paşa belə cavab vermişdi. Türkiyə müstəqil Ermənistan hökuməti yaradılmasının əleyhinə deyil, bu şərtlə ki, erməni xalqı ingilis-rus siyasəti xatirinə türklərə qarşı öz intriqalarından əl çəksinlər.

Öz məruzəsinin sonunda M.H.Hacınski əlavə edir ki, Ənvər paşanın yuxarıda göstərilən məsələlərə münasibətdəki görüşləri barədə Vəhib paşa və Rauf bəy isə başqa fikirdədilər. Onlar burada sülhü qorumaq üçün Zaqafqaziyanın daxili işlərinə qarışmağın tərəfdarı deyillər.

Mayın 3-də keçirdiyi iclasda (sən. №14) Seymin müsəlman fraksiyası ilk olaraq Zaqafqaziyada dövlət quruluşu barədə məsələ müzakirə edir. Ölkədə federativ, yaxud konfederativ quruluşun yaradılması məsələsi uzun müddətli müzakirə və mübahisə mövzusu olur. Nəticədə isə qərara alınır ki, Gürcüstan, Azərbaycan və Ermənistanın Şimali Qafqaz dağlıları ilə birlikdə konfederasiya yaratmaq ideyası müdafiə olunsun. Özü də Azərbaycan və Şimali Qafqaz dağlıları öz aralarında federasiya yaratsınlar.

Sonra Azərbaycanda anarxiyanın baş alıb getməsi məsələsi müzakirə olunur. Qeyd olunur ki, ölkənin ərazisində adam öldürmək, soyğunçuluq, talançılıq, quldurluq və özbaşınalıq həddini aşmışdır. Azərbaycanda vəziyyəti ağırlaşdıran digər səbəblərdən biri də Bakı bolşeviklərinin ölkənin daxilinə doğru hərəkət etməsi, əhali arasında bolşevik əhval-ruhiyyəsinin getdikcə artmağa başlamasıdır. İclas qərara alır ki, hökumətdə iştirak edən müsəlman-nazirlərə

tapşırılsın ki, onlar Azərbaycanda yaranmış dözülməz vəziyyət barədə hökumətə yazılı şəkildə ətraflı məlumat versinlər.

Həmin iclasda Bakı qubernatoru hüquqşünas M.Vəkilov daxili işlər, Seymin üzvü hüquqşünas Ş.Rüstəmbəyov maliyyə, mühəndis A.Rüstəmbəyov isə ticarət və sənaye nazirlərinin müavinləri vəzifəsinə təklif edilirlər.

Müsəlman fraksiyasının mayın 6, 13 və 16-da keçirilmiş iclaslarına M.Y.Cəfərov sədrlik etmişdir. Mayın 6-da Seymin müsəlman fraksiyası ilə Zaqafqaziya Mərkəzi Müsəlman şurasının birlikdə keçirdiyi iclasda (sən. №15) Bakı və Yelizavetpol quberniyalarında yaranmış anarxiya və Seymin müsəlman fraksiyasının rəsmi nümayəndələrindən əlavə Zaqafqaziya Mərkəzi Müsəlman şurası və müxtəlif yerlərdən də bir neçə nümayəndənin Batuma göndərilməsi məsələləri müzakirə olunur.

İclasda qara qüvvələrin ölkə daxilində anarxiya və qarışıqlıq yaratmaq üçün xalq kütlələri arasında fitnəkar fəaliyyətlə məşğul olmaqla Bakı əməliyyatını uzatmaq, Şərqi Zaqafqaziyada əhalinin normal həyat şəraitini pozmaq cəhdləri ətraflı tənqid edilir. Qərara alınır ki, tezliklə Bakının alınması və ölkədə qayda-qanun yaradılması işi təmin olunmalıdır. Bildirilir ki, bu vəzifə yalnız türklərin fəal silahlı köməyi ilə yerinə yetirilə bilər.

Bu məqsədlə doktor X.Sultanov və M.Y.Cəfərov Zaqafqaziya Mərkəzi Milli Şurasından Batuma xüsusi nümayəndə heyəti göndərmək təklifində israr edirlər. Bu fikrin əleyhdarları isə Batumda Seymin rəsmi nümayəndələri M.Ə.Rəsulzadə və M.H.Hacınski danışıqlar apardığı bir zamanda əlavə nümayəndə heyətinin göndərilməsinin prinsipcə düzgün olmadığını bildirirlər. Nəticədə iclas Zaqafqaziya Mərkəzi Müsəlman Milli Şurası adından aşağıdakı qərarı qəbul edir: "Zaqafqaziya Mərkəzi Milli Şurasından Batuma rəsmi nümayəndə göndərilməsin. Əgər yerlərdən getmək istəyənlər olarsa, onlara heç bir maneə törədilməsin və onlara tapşırılsın ki, orada rəsmi nümayəndələrdən xəbərsiz özbaşına hərəkətlər etməsinlər".

Həmin iclasda F.X.Xoyski növbədənkənar bəyanat verərək bildirir ki, Seymin "Daşnaksütyun" partiyasından olan məsul nümayəndəsi ona bildirib ki, onlar Bakı hadisələrini nizamlamaq məsələlərini bu şərtlə öz üzərlərinə götürərlər ki, gələcəkdə Bakıda yaradılacaq hakimiyyət orqanı təkcə müsəlmanlardan deyil, həm də digər millətlərin nümayəndələrindən ibarət olsun, erməni hissələri də Bakıda qalsın. O, əlavə edir ki, taktiki nöqteyi-nəzərdən bu cür həyasız təklifə mən həmin dəqiqə cavab vermədim.

Çıxış edən N.Yusifbəyov birmənalı şəkildə bəyan edir ki, bu cür təklifdən imtina etməliyik. Belə ki, bu təklif həqiqi sülh şəraitində yaşamaq niyyəti ilə deyil, türk ordusunun yaxınlaşmasından yaranan qorxu və təlaş hissi ilə əlaqədardı. Onlar bilirlər ki, türk ordusuna Bakı məsələsini bizim xeyrimizə tam və daha yaxşı formada həll etmək çətin olmayacaq. Türklərin gəlməsindən qorxaraq onlar şahmat gedişi etmək istəyirlər. Türklərin Şərqi Zaqafqaziyaya gəlişi üçün maneə olacaq

hər bir şey bizim üçün qəbul edilməzdir, o cümlədən də daşnakların təklifi rədd edilməlidir. Seymin üzvü X.Xasməmmədov bildirir ki, biz Bakı şəhərində hakimiyyəti bölüşdürmək fikrini belə yaxın buraxmamalıyıq. Bakıda və bütün Şərqi Zaqafqaziyada hakimiyyət yalnız müsəlmanlara məxsus olmalıdır. Əgər biz orada bu hakimiyyəti itirmişiksə, necə olursa-olsun indi onu tam və həmişəlik geri qaytarmalıyıq.

F.X.Xoyski daşnaklar qarşısında belə bir vəzifə qoymağı təklif edir: Bakıda hakimiyyət müsəlmanlara təhvil verilir, həmin hakimiyyəti müdafiə etmək üçün oraya müsəlman hərbi hissələri yeridilir və tərksilah olunmuş erməni hərbi hissələri oradan çıxarılır. Taktiki və siyasi nöqteyi nəzərdən qərara alınır ki, danışıqların aparılması vaxtı uzadılsın, bu barədə nə Bakıya, nə qəzetlərə heç bir məlumat verilməsin. F.X.Xoyskinin bu təklifi yekdilliklə qəbul olunur.

Mayın 13-də Zaqafqaziya Seymi müsəlman fraksiyasının Yelizavetpol quberniyasının müxtəlif qəzalarından gələn və Batuma gedərək orada Türkiyə nümayəndələri ilə görüşmək istəyən on nəfərdən yuxarı nümayəndələri ilə birlikdə iclas keçirilir (sən, №16).

İlk olaraq bu nümayəndələrin Batuma gedib-getməməsinə münasibət məsələsinə baxılır. Ətraflı fikir mübadiləsindən sonra məlum olur ki, hər bir qəzadan və yerlərdən belə nümayəndələrin getməsinə ehtiyac yoxdur. Zaqafqaziya müsəlmanlarınım rəsmi nümayəndələri Seymin üzvləri M.Ə.Rəsulzadənin və M.H.Hacınskinin Batumda Osmanlı imperiyasının rəsmi nümayəndələri ilə danışıqlar apardığı, onların məsələlərə münasibətləri tamamilə bir-birinə uyğun gəldiyi bir vaxtda oraya əlavə nümayəndələrin getməyinə ehtiyac yoxdur. Lakin qəzalardan olan nümayəndələrin təkidli tələbi ilə onlar Batumda gedən danışıqlar barədə məlumat almaq məqsədilə Qarabağdan nümayəndələr göndərmək istədikləri Mirzə Davud və doktor C.Ləmbəranskinin Batuma getməsini yüngülləşdirməkdə lazımi təşkilatlarla danışıqlar aparmaq işini Xalq Maarif Naziri N.Yusifbəyova həvalə edirlər.

Sonra fraksiyanın iclasında Azərbaycanın daxili və xarici siyasi vəziyyəti müzakirə olunur. Natiqlər bildirirlər ki, ölkə daxilində anarxiyanın artması, qonşu xalqlara inamsızlıq, Türkiyə tərəfindən köməyin yubadılması artıq ölkəni məhv olmaq həddinə çatdırıb. Bu cür vəziyyət köklü və real tədbirlər görməyə sövq edir. Əvvəla Türkiyə tərəfindən köməyi sürətləndirmək üçün Batuma və hətta İstanbula əlavə nümayəndə heyəti göndərmək; ikinci geniş səlahiyyətlərlə Azərbaycana general-komissar təyin etmək; üçüncü isə üç Zaqafqaziya xalqlarının ərazi bölgüsü məsələlərini tezləşdirmək.

Batum və İstanbula göndərmək üçün yekdil səslə Seymin üzvləri: M.Y.Cəfərov, N.Yusifbəyov və X.Xasməmmədov seçilirlər. Qərara alınır ki, Bakı və Yelizavetpol quberniyalarına təcili olaraq general-komissar vəzifəsinə Xudadat bəy Rəfibəyov təyin edilərək, ona geniş səlahiyyətlər verilsin, bütün ictimai və dövlət təşkilatları, vəzifəli şəxslər ona tabe edilsin. Üç Zaqafqaziya xalqlarının

ərazi bölgüsünü müəyyənləşdirmək üçün mayın 14-də saat 12-də fraksiyanın iclasını keçirmək qərara alınır. Lakin görünür, türk ordusunun hücumu ilə əlaqədar vəziyyət dəyişdiyi üçün həmin gün iclas keçirilməmişdir.

Türk ordusunun hücumu və türklərin yeni tələbləri ilə əlaqədar Zaqafqaziyada vəziyyətin dəyişməsi, türk ordusunun Aleksandropolda hərbi əməliyyatları bərpa etməsi münasibətilə Zaqafqaziya Mərkəzi Müsəlman Şurasının həmin il mayın 16-da iclası keçirilir (sən. №17). Seymin üzvü N.Yusifbəyov məlumat verir ki, bütün zümrələrdən olan gürcü nümayəndələri siyasi vəziyyəti çox gözəl hiss edirlər. Danışıqlardan görünür ki, Batum avantürasından sonra onlar yeni avantüraya getmələri və türklərlə ycni müharibəyə başlamaları barədə söz ola bilməz. Erməni nümayəndələri isə tamamilə özgə fikirdədilər. Rusiya ilə Türkiyə arasında müharibə başlayandan əyri yollara düşmüş ermənilər, öz xalqını dayanmadan uçuruma doğru aparırlar. İndi də türk ordusuna qarşı müqavimətin onlar üçün tamamilə fəlakət olacağını bildikləri halda ermənilər yenə də əldə silah müqavimət göstərmək niyyətindədilər. Onların bu hərəkəti əlbəttə ki, Seymin işində böhran yaranmasına səbəb olacaq, bunun məntiqi nəticəsi olaraq Azərbaycan və Gürcüstan öz müstəqilliklərini elan etmək işinə hazır olmalıdırlar.

Seymin üzvü X.Xasməmmədov bəyan edir ki, Gürcü Milli Şurası bu istiqamətdə artıq hazırlıq tədbirləri görür. Bizə də bu istiqamətdə iş görmək lazımdır. Əvvəla əhalini, əsasən isə mərkəzləri, xüsusilə Yelizavetpolu məlumatlandırmaq lazımdır ki, əhalinin bizim atacağımız hər bir siyasi addımdan xəbəri olsun. Özümüz isə burada lazım olduqda müstəqil Azərbaycan adından danışmaq üçün bütün formal şərtləri hazırlamalıyıq. Belə tədbirlərdən biri Batuma əlavə nümayəndə heyəti göndərməyi sürətləndirməkdir. Seymdə bütün müsəlman fraksiyalarının mayın 13-dəki iclasında M.Y.Cəfərov, N.Yusifbəyli, X.Xasməmmədovdan ibarət nümayəndə heyətinə F.X.Xoyskinin də daxil edilməsi təklif olunur. Belə olduqda Batumda Zaqafqaziya Mərkəzi Müsəlman Milli Şurasının üzvləri demək olar ki, tam tərkibdə təmsil olunacaq və onlar siyasi şəraitdən asılı olaraq orada Türkiyənin tələbinə uyğun lazımi qərarlar qəbul edə bilərlər. X.Xasməmmədovun təklifi bütünlüklə qəbul olunur.

Bu iclasda Zaqafqaziya Mərkəzi Müsəlman Şurası müharibə başlanan vaxtdan doktor X.Sultanovun rəhbərliyi ilə qaçqın müsəlmanlara yardım təşkilatı ilə yanaşı, bundan sonra bu iş üçün əlavə təşkilatm da yaradılmasını qərara alır. Belə bir təşkilatın Zaqafqaziya Mərkəzi Müsəlman Şurasının qaçqınlar şöbəsi olacağı qərara alınır. Zaqafqaziya Seyminin üzvləri Ş.Rüstəmbəyov, M.Məhərrəmov və C.Məlik-Yeqanovdan ibarət heyətə qaçqınların işlərini təşkil etmək həvalə olunur.

Müsəlman fraksiyasının mayın 22-də Şəfibəy Rüstəmbəylinin sədrliyi ilə keçirilmiş növbəti iclasında (sən. №18) Kürdəmir cəbhəsindən qayıtmış M.Vəkilovun qaçqınların vəziyyəti barəsindəki məruzəsi dinlənilir. Məruzəçi qeyd

edir ki, on minlərlə qaçqının ağır vəziyyəti təsvir edilməzdir. Onlara ən təcili və geniş şəkildə köməklik göstərilməlidir.

Zaqafqaziyada siyasi vəziyyətin kəskin surətdə dəyişməsi ilə əlaqədar olaraq 1918-ci il mayın 25-də səhər Tiflisin Canişin sarayında X.Məlik-Yeqanovun sədrliyi ilə Zaqafqaziya Seyminin bütün müsəlman fraksiyaları üzvlərinin növbədənkənar səhər iclası keçirilir (sən. №19). İclasda bildirilir ki, etibarlı mənbələrdən daxil olan xəbərlərə görə, gürcülər öz müstəqilliklərini elan etmək üçün almanlarla gizli danışıqlar aparırlar. Gürcü Milli Şurası rəyasət heyətinin üzvü Q.Veşapeli Zaqafqaziya Mərkəzi Müsəlman Şurasının katibi, Seymin üzvü Rəhim bəylə söhbətində bu barədə məlumat verib. Məsələnin müzakirəsindən məlum olur ki, gürcülərin Zaqafqaziya federasiyasından ayrılması məsələsi demək olar ki, qərara alınıb. Ona görə də Seymin müsəlman fraksiyası da əvvəlcədən bu cür hərəkətlərə hazır olmalıdır. Bütün müsəlman fraksiyaları belə bir prinsipial qərara gəlirlər ki, "əgər Gürcüstan öz müstəqilliyini elan edərsə, o zaman Azərbaycan da öz müstəqilliyini elan edəcəkdir".

Elə həmin gün Zaqafqaziya Seyminin müsəlman fraksiyasının üzvləri Tiflisin Canişin sarayında F.X.Xoyskinin sədrliyi ilə özlərinin axşam iclasına yığılırlar (sən. №20). Yığıncaq iştirakçıları sədrlik edən F.X.Xoyskidən xahiş edirlər ki, o elə indi Seymin sədri A.Çxeidzenin yanına getsin və Seymin sabaha mayın 26-na təyin olımmuş iclasının gündəliyini aydınlaşdırsın. Habelə ona tapşırılır ki, birbaşa xətlə təcili Batumdakı müsəlman sülh nümayəndə heyətinin üzvləri ilə də danışıqlar aparsın.

F.X.Xoyski sədrliyi müvəqqəti olaraq X.Xasməmmədova həvalə edərək gedir. X.Xasməmmədov öz məruzəsində vəziyyət barədə məlumat verir və yaranmış şəraiti təhlil edərək göstərir ki, hələ xüsusi Zaqafqaziya Komitəsi dövründə belə Zaqafqaziya Respublikasına daxil olan milli ünsürlər arasında heç vaxt birlik və dostluq münasibətləri olmamışdır. Məruzəçi qeyd edir ki, Kürdəmir istiqamətində hücum edən bolşeviklərlə-daşnak qüvvələrinə qarşı Azərbaycan türklərinə kömək məsələsində gürcü hökumət üzvləri həmişə ikili oyun oynamışlar. Sözdə bir cür, işdə isə başqa cür hərəkət etmişlər. O, qeyd edir ki, bu birliyin olmaması özünü daha çox hökumətin iclaslarında biruzə verirdi. Bu iclaslar daha çox ayrı-ayrı dövlətlərin bir-birilərinə etibarları olmayan nümayəndələrinin konfransı görüntüsü yaradırdı, nəinki vahid dövlət sistemi.

Bir qədər sonra F.X.Xoyski qayıdır. Çox keçmədən Zaqafqaziya seyminin sədri A.Çxeidze, Seymin üzvü B.Sereteli və K.Qeqeçkori daxil olurlar. İlk söz alan B.Sereteli aşağıdakı bəyanatla çıxış edir: "Sosial-demokrat fraksiyası və ümumiyyətlə, Seymin gürcü sektoru bu nəticəyə gəlib ki, müstəqillik şüarı altında Zaqafqaziya xalqlarını birləşdirmək mümkün olmadı. Zaqafqaziyanın süqutu faktı göz qarşısındadır. Xüsusilə Türkiyə ilə danışıqlar zamanı bu birliyin olmadığı aydın oldu. Bizim tərəfimiz azlıq tərəfi kimi etibarsızlıqla qarşılandı və biz indi məcbur olduq ki, Gürcüstanın müstəqilliyini elan edək. Biz birliyi çox

qiymətləndiririk və yenə də ümidimizi itirmirik ki, bu birliyi gələcəkdə ümumi mənafelər istiqamətində inkişaf etdirəcəyik. Biz əminik ki, bu, gələcəkdə mümkün olacaq. Hazırkı dövrdə isə bizim Gürcüstanın müstəqilliyini elan etməkdən başqa çıxış yolumuz yoxdur. Seymin sabahkı iclasında biz Qafqaz Respublikasının süqutu faktını müəyyən edəcəyik".

Sonra çıxış edən Seymin sədri A.Çxeidze Zaqafqaziya xalqlarının birliyinin süqutu ilə əlaqədar özünün dərin təəssüfünü bildirir.

Onlara cavab verən F.X.Xoyski qeyd edir ki, Zaqafqaziya xalqları mənafeləri baxımından öz aralarında olduqca sıx əlaqədədirlər, bu ayrılıq asan olmayacaq. Əgər bu gürcü xalqının iradəsidirsə, onda bizim hcç bir hüququmuz yoxdur ki, ona mane olaq. Əlbəttə, bu yeni hadisə ilə əlaqədar olaraq Azərbaycan türklərinə də müvafiq qərar qəbul etməkdən başqa yol qalmır.

Seym üzvlərindən bir nəfər Zaqafqaziya hökumətinin əmlakının bölünməsi məsələsi ilə maraqlanır. Ona cavab verərək B.Sereteli bildirir ki, "Biz sonra gürcü xalqının malı olmayan və ümumi dövlətə aid bütün əmlakı ümumi razılıqla bölüşdürəcəyik". B.Sereteli, A.Çxeidze və J.Qeqeçkori gedəndən sonra F.X.Xoyski məlumat verir ki, Seymin və hökumətin üzvü X.Karçikyanla söhbət zamanı aydın oldu ki, Gürcüstan öz müstəqilliyini elan edərsə, onda Seymin erməni bölməsi də Ermənistanın müstəqilliyini elan edəcək.

Hərtərəfli müzakirədən sonra Zaqafqaziya Seyminin müsəlman bölməsi aşağıdakı qərarı qəbul edir: "Əgər Gürcüstan öz müstəqilliyini elan edərsə, onda bizim tərəfimizdən də Azərbaycanın müstəqilliyi elan olunmalıdır" (sən. №20).

Mayın 26-da keçirilən Zaqafqaziya Seyminin son iclasında onun buraxılması ilə Azərbaycanda xalqımızın Parlamentçiliyə doğru ilk addımına, Zaqafqaziya Seymi və onun müsəlman fraksiyasının Seymdəki fəaliyyətinə yekun vurulur.

Mayın 27-dən fasilələrlə dekabrın 7-nə qədər Azərbaycanda Parlamentarizmin ikinci dövrü Azərbaycan Milli Şurasının fəaliyyət dövrü başlayır.

* * *

Zaqafqaziya Seyminin və Respublikasının süqutunun ertəsi günü, mayın 27-də bölgədə yaranmış siyasi vəziyyəti müzakirə ctmək məqsədilə buraxılmış Seymin bütün keçmiş müsəlmanlardan ibarət üzvlərinin fövqəladə iclası keçirilir (sən. №21). İclasa 4-cü Rusiya Dövlət Dumasının və Zaqafqaziya Seyminin keçmiş üzvü M.Y.Cəfərov sədrlik edir. İclasda keçmiş Zaqafqaziya Seyminə daxil olan "Müsavat" partiyası və partiyasızların dcmokratik qrupunun, müsəlman sosialistlər bloku, "İttihad" və müsəlman sosial demokratik menşevik "Hümmət" partiyalarının nümayəndələri iştirak edirlər.

İclas Batumdan qayıtmış Zaqafqaziya Mərkəzi Müsəlman Şurasının üzvü N.Yusifbəyov tərəfindən edilmiş məruzə ilə açılır. Öz məruzəsində o, Türkiyə sülh nümayəndə heyətinin Zaqafqaziyanın müstəqilliyinin saxlanılmasında Türkiyənin

qəti qərarlılığını və gənc dövlətin möhkəmlənməsi, güclənməsi və çiçəklənməsi üçün əlindən gələni edəcəyinə hazır olduğunu bildirir. Türkiyə nümayəndə heyətinin qənaətinə görə Zaqafqaziyanın çiçəklənməsinin başlıca rəhni Zaqafqaziya xalqlarının birliyi və həmrəyliyidir. Bu məqsədə çatmaq üçün bizim tərəfimizdən ermənilərə bir qədər torpaq güzəşt olunmalıdır. Almaniyanın Zaqafqaziyadakı siyasətinə toxunan məruzəçi bildirir ki, baxmayaraq Batumda Zaqafqaziya barədə Almaniya ilə Türkiyə arasında tam həmrəylik və müstəqillik hökm sürür, ancaq o, Türkiyənin Qafqazdakı siyasəti ilə Almaniyanın həmrəy olduğuna şübhə edir.

N.Yusifboyovun məruzəsini dinləyən Seymin müsəlman fraksiyası Seymin özünü buraxması məsələsini geniş və hərtərəfli müzakirə edərək, vəziyyətin ciddiliyini nəzərə alıb, ölkədə anarxiyanın hökm sürdüyü, növbədə mürəkkəb millətlərarası məsələnin dayandığı bir vaxtda Türkiyə ilə başlamış danışıqları başa çatdırmaq, yenicə dağılmış Zaqafqaziya hökumətinin varidatının bölüşdürülməsində müsəlmanlar adından bu məsələlərdə iştirak etmək üçün xüsusi bir orqanın yaradılmasına ehtiyac hiss olunduğu bildirilir. İlk olaraq bunun üçün keçmiş Zaqafqaziya Seyminin bütün müsəlman fraksiyalarının üzvləri Şərqi Zaqafqaziyanın idarəsini öz üzərlərinə götürmək məqsədilə özlərini Zaqafqaziya müsəlmanlarının Müvəqqəti Milli Şurası elan etmək barədə yekdil səslə qərar qəbul edirlər.

Fövqəladə İclas Azərbaycan Milli Şurasının Rəyasət Heyətini seçir. Rəyasət heyətinə "Müsavat" partiyasından və bitərəflərin demokratik qrupundan - M.Ə.Rəsulzadə, M.H.Hacınski, N.Yusifbəyov, X.Xasməmmədov, M.Y.Cəfərov; müsəlman sosialistləri blokundan - X.Məlik-Aslanov və Camo Hacınski; Sosial-demokrat "Hümmət" partiyasından isə - doktor X.P.Sultanov seçilir.

Gizli səsvermə nəticəsində həmin vaxt Batumda Türkiyə nümayəndə heyəti ilə danışıqlar aparan M.Ə.Rəsulzadə Milli Şuranın sədri seçilir. Onun lehinə 22 nəfər, əleyhinə isə "İttihad" partiyasından olan 2 nəfər səs verir. Habelə gizli səsvermə yolu ilə H.Ağayev və M.H.Seyidov sədrin müavinləri, M.Mahmudov və R.Vəkilov isə katib seçilirlər. F.X.Xoyski isə yekdil səslə icraedici orqanın, hökumətin sədri seçilir.

Milli Şuranın yaradılması və onun vəzifələri barədə məlumat vermək üçün - N.Yusifbəyov, Ş.Rüstəmbəyov və doktor X.P.Sultanovdan ibarət nümayəndə heyətini Yelizavetpola göndərmək barədə qərar qəbul olunur.

İclasın sonunda keçmiş Zaqafqaziya hökumətinin üzvü X.Məlik-Aslanov məlumat verir ki, Gürcüstan hökumətinin sədri rəsmi sənədlə müraciət edərək keçmiş Zaqafqaziya hökumətindəki nazirlərini Zaqafqaziyanın bölünməsinə həsr olunmuş müzakirəyə çağırır. Bu iclasa getməzdən əvvəl mən bu iclasda necə hərəkət etmək barədə Müsəlman Milli Şurasının direktivini almalıyam.

1918-ci il mayın 28-də Tiflisdə keçmiş Qafqaz Canişinin sarayında sədr müavini Həsənbəy Ağayevin sədrliyi və M.Mahmudovun katibliyi ilə müsəlman

Milli Şurasının ilk iclası keçirilir (sən. №22). Xalqımız üçün taleyüklü belə bir tarixi iclasda Milli Şuranın aşağıdakı üzvləri iştirak edirdi: Fətəli Xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyov, Mir Hidayət Seyidov, Nəriman bəy Nərimanov, Heybətqulu Məmmədbəyov, Aslan bəy Qardaşov, Sultan Məcid Qənizadə, Əkbər ağa Şeyxülislamov, Mehdi bəy Hacıbababəyov, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlik-Aslanov, Rəhim bəy Vəkilov, Həmid bəy Şahtaxtinski, Firudin bəy Köçərli, Camo bəy Hacınski, Şəfı bəy Rüstəmbəyov, Xosrov Paşa bəy Sultanov, Cəfər Axundov, Məhəmməd Məhərrəmov, Cavad Məlik-Yeqanov və Hacı Molla Axundzadə iştirak edirdi.

Gündəlikdə aşağıdakı məsələlər dururdu:

1) Son hadisələrlə əlaqədar Yelizavetpolda vəziyyət barədə Həsən bəy Ağayevin məlumatı; 2) M.Ə.Rəsulzadənin Batumdan göndərdiyi məktub və teleqramların oxunması; 3) Seymin buraxılması və Gürcüstanın öz müstəqilliyini elan etməsi ilə əlaqədar Azərbaycanda vəziyyət.

Birinci məsələ barədə yenicə Yelizavetpoldan qayıtmış H.Ağayev Yelizavetpol şəhərində və quberniyasında vəziyyət, habelə oraya türk zabitlərinin gəlməsi barədə ətraflı məlumat verərək qəti şəkildə bildirir ki, bu zabitlərin Gəncəyə gəlməsinin Azərbaycanın gələcək siyasi həyatının qurulması ilə heç bir əlaqəsi yoxdur. Türklər Qafqazda - Azərbaycanda hər hansı bir təcavüzkar məqsəd güdmür, əksinə türklər Azərbaycanın və Zaqafqaziya Respublikasının saxlanılmasının tərəfdarıdırlar.

Sonra M.Ə.Rəsulzadənin Batumdan N.Yusifbəyovla göndərilən məktub və teleqramları Şura üzvlərinə məlumat üçün elan olunur.

Üçüncü məsələ barədə çıxış edən Milli Şura üzvü X.Xasməmmədov öz məruzəsində Azərbaycanın Müstəqil Cümhuriyyət elan edilməsinin vacibliyini və təxirəsalınmazlığını əsaslandırır. N.Yusifbəyov, Ə.Şeyxülislamov, M.H.Seyidov və başqaları da bu ruhda çıxış edirlər. Şuranın üzvü F.X.Xoyski yerlərdə bir sıra məsələlər aydınlaşdırılana qədər Azərbaycanın müstəqilliyinin elanını təxirə salmağı, digər ölkələrlə sülh danışıqları aparmaq üçün tam hüquqlu hökumət yaratmağı təklif edir. Bu barədə bir sıra natiqlər də öz fikirlərini bildirirlər. Məsələnin işgüzar şəkildə və ətraflı müzakirəsindən sonra 24 nəfər təxirə salınmadan Şərqi və Cənubi-Şərqi Zaqafqaziyada Azərbaycanın Müstəqil Xalq Cümhuriyyəti kimi elanı barədə qərar qəbul edir. İki nəfər S.M.Qəniyev və C.Axundov səsvermədə bitərəf qalırlar. Bundan sonra aşağıdakı müstəqillik aktını şüra üzvləri ayaq üstə dinləyirlər:

"Böyük Rusiya inqilabının cərəyanı ilə dövlət vücudunun ayrı-ayrı hissələrə ayrılması ilə Zaqafqaziyanın rus orduları tərəfindən tərkinə mövcud bir vəziyyəti siyasiyyə hasil oldu. Kəndli qəvayi-məxsusələrinə tərk olunan Zaqafqaziya millətləri müqəddəratlarının idarəsini bizzat kəndi əllərinə alaraq Zaqafqaziya Qoşma Xalq Cümhuriyyətini təsis etdilər. Vəqayi-siyasiyyənin inkişaf

etməsi üzərinə gürcü milləti Zaqafqaziya Qoşma Cümhuriyyəti təsisini səlah gördü.

Rusiya ilə Osmanlı imperatorluğu arasında zühur edən müharibənin təsviyyəsi üzündən hasil olan vəziyyət hazireyi-siyasiyyə və məmləkət daxilində bulunan misilsiz anarxiya Cənubi-Şərqi Zaqafqaziyadan ibarət bulunan Azərbaycana, dəxi bulunduğu daxili və xarici müşkülatdan çıxmaq üçün xüsusi bir dövlət təşkilatı qurmaq lüzumunu təlqin ediyor.

Buna binaən arai-ümumiyyə ilə intixab olunan Azərbaycan Şurai milliyeyi-islamiyyəsi bütün cəmaətə elan ediyor ki:

1. Bu gündən etibarən Azərbaycan xəlqi hakimiyyət həqqinə malik olduğu kibi Cənubi-Şərqi Zaqafqaziyadan ibarət Azərbaycan dəxi kamiləl-hüquq müstəqil bir dövlətdir; 2. Müstəqil Azərbaycan dövlətinin şəkili-idarəsi Xalq Cümhuriyyəti olaraq təqarrür ediyor; 3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər və bixassə həmcüvar olduğu millət və dövlətlərlə münasibəti - həsənə təsisinə əzm edər; 4. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən qələmrəvində yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin edər; 5. Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bil cümlə millətlərə sərbəstanə inkişafı üçün geniş meydan buraxır; 6. Məclisi-Müəssisan toplanıncaya qədər Azərbaycan İdarəsinin başında arai-ümumiyyə ilə intixab olunmuş Şurai Milli və Şurai-Milliyə qarşı məsul hökuməti-müvəqqəti durur".

Sonra Milli Şura şuranın üzvü F.X.Xoyskiyə Azərbaycan Xalq Cümhuriyyətinin birinci müvəqqəti hökumətini təşkil etməyi həvalə edir.

Bir saatlıq fasilədən sonra F.X.Xoyski aşağıdakı şəxslərdən ibarət müvəqqəti hökumətin tərkibini elan edir: Nazirlər Şurasının sədri və Daxili İşlər Naziri - Fətəli xan Xoyski; Hərbi Nazir - Xosrov Paşa bəy Sultanov; Xarici İşlər Naziri - Məmməd Həsən Hacınski; Maliyyə və Xalq Təhsil Naziri - Nəsib bəy Yusifbəyli; Ədliyyə Naziri - Xəlil bəy Xasməmmədov; Ticarət və Sənaye Naziri – Məmməd Yusif Cəfərov; Əkinçilik və Əmək Naziri – Əkbər ağa Şeyxülislamov; Yollar və Posta-Teleqraf Naziri - Xudadat bəy Məlik-Aslanov; Dövlət Müfəttişi - Camo Hacınski.

1918-ci il mayın 29-da Tiflisdə keçmiş Qafqaz Canişini sarayında Həsənbəy Ağayevin sədrliyi ilə Müsəlman Milli Şurasının ikinci iclası keçirilir (sən. №23). İclasda xalqımız üçün çox taleyüklü bir məsələ olan və bu gün də böyük mübahisələr, müxtəlif flkirlər doğuran İrəvanın siyasi mərkəz kimi Ermənistana güzəştə gedilməsi məsələsi müzakirə olunur.

Şuranın üzvü F.X.Xoyski Ermənistanla Azərbaycan arasında sərhəd məsələləri barədə Şuranın üzvləri ilə Ermənistan Milli Şurasının üzvləri arasında aparılmış danışıqlar haqqında məlumat verir. Fətəli xan öz məruzəsində ermənilərin özlərinin siyasi mərkəzlərini yaratmaq üçün Aleksandropol Türk ordusu tərəfindən tutulduqdan sonra İrəvanın Ermənistana güzəştə getməsinin

qaçılmaz olduğunu bəyan edir. Bu məsələ ilə bağlı X.Xasməmmədov, M.Y.Cəfərov, Ə.Şeyxülislamov və M.Məhərrəmov çıxış edərək İrəvanın Ermənistana güzəştə gedilməsinin tarixi zərurət, lakin bizim üçün qaçılmaz acı bir həqiqət olduğunu qeyd edirlər. 28 nəfər Şura üzvündən 16 nəfəri bu təklifin lehinə səs verir.

Bundan sonra ermənilərlə konfederasiya yaratmaq barədə məsələ də müzakirə olunur. Qısa fikir mübadiləsindən sonra həmin məsələ səsə qoyulur və yekdil səslə qəbul olunur. Sonra Teymur bəy Makinskinin Milli Şura üzvlüyünə qəbulu barədə təklif də yekdil səslə qəbul olunur.

1918-ci il iyunun 1-də Tiflisdə keçmiş Canişin sarayında H.Ağayevin sədrliyi ilə Müsəlman Milli Şurasının üçüncü iclası keçirilir (sən. №24).

İlk olaraq "Hümmət" partiyasından Cəfər Axundovun yerinə K.Camalbəyovun Milli Şura üzvlüyünə təklifi barədə məlumat dinlənir. İrəvanın Ermənistan Respublikasına güzəştə gedilməsi ilə əlaqədar İrəvandan olan Milli Şura üzvləri Mir Hidayət Seyidov, Bağır Rzayev və N.Nərimanbəyovun qəti etirazı elan olunur. Lakin Milli Şura müzakirə etmədən həmin etiraz sənədini işə tikmək barədə qərar qəbul edir.

Həmin iclasda Yelizavetpoldan qayıtmış Nəsib bəy Yusifbəyov oradakı vəziyyət haqqında ətraflı məruzə edir və əlavə olaraq Ş.Rüstəmbəyov da məlumat verir. Məruzə ətrafında müzakirələr nəticəsində Şura qərara alır ki, bu barədə Batum şəhərindəki Azərbaycan nümayəndə heyətinə məlumat vermək üçün N.Yusifbəyov Batuma ezam edilsin. Habelə şura üzvləri İrəvanın Ermənistana güzəştə gedilməsi məsələsi və qaçqınlara köməyin təşkili ilə əlaqədar İrəvana xüsusi nümayəndə heyətinin göndərilməsinin vacibliyi məsələsini də qaldırırlar. Təklif qəbul edilir. M.H.Seyidov, M.Rzayev və M.Y.Cəfərovdan ibarət nümayəndə heyətini İrəvana göndərmək qərara alınır.

Sonra hökumətin sədri F.X.Xoyski Milli Şuraya hökumətin sərəncamına bir milyon manat kredit buraxılması barədə qərar qəbul edilməsi üçün məruzə təqdim edir. Milli Şura yekdil səslə bu təklifin qəbul edilməsi və hələlik maliyyə məsələlərinə nəzarət edən Gürcüstan Respublikasının hökumətinə Azərbaycan hökuməti üçün bir milyon manatlıq kredit ayrıldığı barədə məlumat verilməsi haqqında qərar qəbul edir.

Milli Şuranın növbəti iclası 1918-ci il iyunun 7-də Tiflisdə Şura sədrinin müavini M.H.Seyidovun sədrliyi ilə keçirilir (son. №25). Sədrlik edən M.H.Seyidov hökumət tərəfindən nazirlik və idarələrə təklif edilən müvəkkillərin siyahısını elan edir və Şura tərəfindən bu təklif qəbul olunur. Sonra Milli Şurada Həsən bəy Ağayevin Milli Şura sədrinin müavini vəzifəsindən imtina etməsi barəsindəki ərizəsi elan olunur. Azərbaycan Cümhuriyyəti hökumətinin sədri F.X.Xoyskinin bu haqdakı izahatını dinləyən Milli Şura yekdil səslə Həsən bəy Ağayevin istefasını qəbul etməmək barədə qərar qəbul edir və ondan sədr müavini kimi öz fəaliyyətini davam etdirməyi xahiş edir.

Sonra hökumətin sədri F.X.Xoyski Erməni Milli Şurasının nümayəndələri ilə İrəvana dəmir yolunun açılması, Bakı hadisələri və Bakının bolşeviklərdən azad edilməsi barədə erməni və müsəlman Milli Şuralarının baxışlarını müəyyən etmək məqsədilə müştərək nümayəndəliyin yaradılmasını təklif edir. İclas Azərbaycan Milli Şurası tərəfindən Bakıya göndəriləcək müştərək nümayəndə heyətinin tərkibinə M.Hacıbababəyovu və E.Məmmədbəyovu təklif edir.

Çox maraqlıdır ki, həmin iclasda iyun ayının 1-də İrəvana göndəriləcək nümayəndə heyəti barədə çox qızğın mübahisə gedir. Bu mübahisələr zamanı İrəvan quberniyasından olan nümayəndə Bağır Rzayev bəyan edir ki: "Mən əminəm ki, İrəvan quberniyasına sizlərdən heç kim getməyəcək. Oraya biz irəvanlılar mən və Seyidov gedəcəyik. Sizdən bir şeyi xahiş edirik: Öz Azərbaycanınızın müstəqilliyini təmin edib, bizi - Ermənistan Respublikasının ərazisində qalanları yaddan çıxarmayın" (sən. №25).

1918-ci il iyunun 13-də Tiflisdə, Oriant mehmanxanasında Azərbaycan Milli Şurasının son 6-cı iclası keçirilir (sən, №26). İclasa Şura üzvü M.Ə.Əfəndizadə sədrlik edir. Milli Şura Batumdan - sülh konfransından qayıtmış M.H.Hacınskinin sülh danışıqlarının gedişi barədə ətraflı məruzəsini dinləyir (sən, №26). M.H.Hacınskinin məruzəsindən məlum olur ki, Batumda bağlanmış sülh müqavilələri İstanbulda Almaniya, Avstriya və Bolqarıstan nümayəndə heyətlərinin iştirakı ilə müzakirə olunacaq və buraya Azərbaycan da nümayəndə heyəti göndərməli olacaq. Sonra komissiya tərəfindən türklərin verdiyi ultimatumun bir sıra maddələrinə dəyişikliklər oxunur.

Həmin gün Milli Şuranın müzakirə etdiyi ikinci məsələ ermənilərin azərbaycanlılara qarşı törətdiyi qırğınlar barədə İrəvandan gələn həyəcanlı xəbərlərə həsr olunur. Şura üzvü İbrahim ağa Vəkilov oradakı müsəlman qaçqınların acınacaqlı vəziyyətləri ilə əlaqədar olaraq onlara kömək məqsədilə 150 min manat vəsait buraxmağı təklif edir. İ.Vəkilovun təsirli nitqindən sonra məlum olur ki, İrəvan quberniyası ərazisində dolaşan ac-yalavac müsəlman qaçqınların sayı 150 min nəfərə çatmışdır. Qaçqınlar arasında epidemiya xəstəlikləri geniş yayılmış, hər gün acından ölənlər qeydə alınır. Ona görə də təcili olaraq qaçqınlara ərzaq, geyim və təsərrüfat malları ilə köməklik göstərilməsi təklif olunur. Natiq öz sözlərini zərər çəkmişlərin sayı və dağıdılmış 206 kəndin adlarını sadalamaqla bitirir.

Milli Şuranın Ermənistan Respublikasındakı qaçqınların vəziyyəti ilə əlaqədar qəbul etdiyi qərarda göstərildi ki: - İrəvan dairəsində qaçqınlara paylamaq üçün tezliklə nümayəndələr vasitəsi ilə oraya pul vəsaiti göndərilsin; Erməni Milli Şurasından xahiş edilsin ki, imkan daxilində aclıq çəkən müsəlmanlara ərzaq yardımı göstərsin; Türk ordusu komandanlığından isə xahiş edilsin ki, İrəvan qaçqınlarına ərzaqla kömək etsin və müsəlmanların öz doğma kəndlərinə qayıtmalarına kömək üçün tutarlı göstərişlər versin.

* * *

Azərbaycan üçün çox mürəkkəb bir tarixi şəraitdə Tiflisdə fəaliyyətə başlayan Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası və hökuməti bütün hazırlıq işlərini gördükdən, Cümhuriyyət hökumətinin elanı barədə bütün dünyaya məlumat verdikdən sonra 1918-ci il iyun ayının 16-da Tiflisdən Gəncəyə köçür. Lakin Milli Şura və hökumət burada əlverişli iş şəraiti tapmır. Bakıdan qaçmış burjuaziya nümayəndələri və Gəncə quberniyasının müflis olmuş, qəzəblənmiş zadəganları, məlum şəraitdən istifadə edərək Gəncəyə gəlmiş Milli Şura və hökumətə qarşı təbliğata başlayırlar. Bu zaman Gəncədə real hakimiyyət hələ mayın axırlarında 300 nəfərlik hərbi təlimatçılarla Gəncəyə gəlmiş Türkiyə Qafqaz ordusunun baş komandanı Nuru Paşanın əlində idi. O, tezliklə Gəncədə hərc-mərcliyə son qoymuş, şəhərdə qayda-qanun yarada bilmişdi. Azərbaycan Milli Şurası və hökumətinin həyata keçirməyə çalışdıqları tədbirlərin "həddindən artıq demokratik istiqamətindən" narazı qalan Azərbaycanın burjua-mülkədar dairələrinin Gəncəyə Nuru paşanın yanına gəlmiş nümayəndələrinin təsiri ilə Gəncədə real hakimiyyət sahibi olan Nuru paşa Azərbaycan Milli Şurasını və hökumətini şübhə ilə qarşılayır.

Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurası və hökumətinin Gəncədə fəaliyyətə başlamasınm ilk dövrünün bir çox qaranlıq məqamları var. Əvvəla bu dövrə aid çox az sənəd qalıb. Belə ki, iyun ayının 16-da Gəncəyə gələn Azərbaycan Milli Şurasının ertəsi gün, yəni iyunun 17-də keçirdiyi iki iclasının tam və bir iclasın yarımçıq protokolları qalmışdır (sən. № 27, 28, 29).

Birinci qapalı iclas həmin gün saat 12-də şəhər idarəsinin binasında, ikinci açıq iclas isə Gəncə şəhər dumasının binasında keçirilir (sən. №27, 28). 26 nəfər Milli Şura üzvünün iştirak etdiyi birinci iclasda hökumətin sədri F.X.Xoyski söz alaraq bildirir ki, Milli Şuranın sədri M.Ə.Rəsulzadə və Xarici İşlər Naziri M.H.Hacınski ilə birlikdə Türk Qafqaz İslam ordusunun komandanı Nuru paşanın yanına gedib onu təbrik edərək Gəncədə hökumət təşkili barədə ona məlumat verirmişlər. Nuru paşa isə öz növbəsində bildirmişdir ki, bir əsgər kimi o, mülki işlərlə kifayət qədər tanış deyil, ona görə də məsləhət görmüşdür ki, bu barədə onun mülki işlər üzrə müşaviri Əhməd bəy Ağaoğluna müraciət etsinlər. Göstərilən şəxslərin Ə.Ağaoğlu ilə söhbətlərindən bəhs edən F.X.Xoyski məlumat verir ki, danışıqlar zamanı Əhməd bəy Ağaoğlu bildirdi ki, Türkiyə hökuməti və onun Gəncədəki nümayəndəliyi Azərbaycanın daxili işlərinə qarışmayacaq. Ə.Ağaoğlu qeyd edir ki, siz özünüz istədiyiniz kimi hökumət yarada bilərsiniz. Müzakirə zamanı tərəflər razılığa gəlirlər ki, Milli Şura ölkədə hökm sürən anarxiyanı, habelə daxili və xarici maneələri nəzərə alaraq yeni hökumət təşkil edərək ona geniş fəaliyyət üçün səlahiyyət verir və özünü buraxır. Bu məsələnin qısa müzakirəsindən sonra gizli iclas öz işini başa çatdırır.

Elə həmin gün saat 2-də 28 Şura üzvünün iştirakı və M.Ə.Rəsulzadənin sədrliyi ilə Azərbaycan Milli Şurasının ikinci iclası protokoldan da göründüyü kimi

çox əsəbi şəraitdə keçmişdi. İclası açan M.Ə.Rəsulzadə bildirmişdir ki, belə bir fövqəladə ağır vəziyyət olduğu bir zamanda bu məsələni olduqca soyuqqanlılıqla müzakirə etməliyik. Sonra hökumətin sədri F.X.Xoyski Tiflisdə təşkil etdiyi birinci müvəqqəti hökumətin bu az vaxtdakı fəaliyyəti barədə qısa məlumat verərək öz kabinəsinin istefasını qəbul etməyi xahiş edir. Gərgin keçən iclasda Milli Şura üzvlərindən bəziləri Azərbaycan Milli Şurasının buraxılması məsələsinə öz qəti etirazlarını bildirir, bunu Nuru paşanın və Türkiyə hökumətinin Azərbaycanın daxili işlərinə qatışmaq kimi qiymətləndirirlər. Məsələn, M.Y.Cəfərov öz nitqində deyir ki, "Bəli, aydın olur ki, bizi Tiflisdən bura köhnə bürokratik metodlarla dəvət ediblər. Bizim azadlığımızı əlimizdən alırlar. Biz də əldə etdiyimiz azadlığımızı asanlıqla da əldən veririk. Əfsuslar olsun, bizim türk qardaşlarımız, kimlərdən ki, biz kömək gözləyirdik, bizim ürəyimizi yaralayır, bizim hisslərimizi zəhərləyir. Ağlayır və əyləşir".

Arxivdə mühafızə olunan üçüncü protokolun əvvəli yoxdur. Protokolun adı və tarixi sənədin üstü əllə yazılıb. Protokol İdarə Üsulu sözü ilə başlayan Azərbaycanın yeni yaradılacaq müvəqqəti hökumətinin hüquq və vəzifələrinin müzakirəsi ilə başlayır. Azərbaycan müvəqqəti hökumətinin hüquq və vəzifələri haqqında (sən. №29) və bütün səlahiyyətləri Azərbaycanın müvəqqəti hökumətinə həvalə olunaraq Azərbaycan Milli Şurasının buraxılması barədəki iki mühüm qərar qəbul edildikdən və F.X.Xoyskinin başçılığı ilə yeni hökumət təşkil olunduqdan sonra söz alan hökumətin sədri deyir: "Cənablar! Bu tarixi dəqiqədə mənim üzərimə qoyulan məsuliyyətin bütün ağırlığını dərk edərək mən Şura sədrinin təklifini qəbul edəndə ürəyim əsdi. Təşkil etdiyim hökumətin ətraflı deklarasiyasını indi sizə verə bilməyəcəyim üçün üzr istəyirəm. Acaq qısaca olaraq bunu deyə bilərəm ki, bizim proqramımız - Azərbaycanın şərəfini, azadlığını və istiqlaliyyətini qorumaqdır. Mənim yoldaşlarım bu platformada möhkəm və fəal işləməyi vəd edirlər. Etimadınıza görə sizə təşəkkür edir və sizin mənəvi dəstəyinizi gözləyirəm. Ümid edirəm ki, daha əlverişli şəraitdə birgə işləmək üçün tezliklə görüşəcəyik".

M.Ə.Rəsulzadə son söz olaraq geniş nitq söyləyərək deyir: "... Hazırkı qərarla siz tarixi məsuliyyətin bütün çəkilməz ağırlığını cənab Fətəli Xan Xoyskinin yaratdığı hökumətin çiyninə qoydunuz. Azərbaycanın taleyini əllərinə almış şəxslərin qismətinə ən çətin, lakin həm də ən mühüm borc düşür - yeni doğulmuş Azərbaycanı məhv olmağa qoymamaq borcu... Bəli, cənablar, qismən də olsa xalqın təmsilçisi olan bir təsisatın Azərbaycanın müvəqqəti paytaxtı Gəncə şəhərində səhnədən çəkilməsi - şübhəsiz ki, demokratiyanın geri çəkilməsi və mürtəce qüvvələrin uğuru sayılmalıdır".

M.Ə.Rəsulzadə nitqini bu sözlərlə tamamlayır: "İndi gəlin, bu ağır günlərdə üzərinə ağır vəzifə yüklədiyimiz bu hökumətlə vidalaşaq və ayrılaq. Gəlin, qardaş kimi ayrılaq. Əfəndilər, ayrılarkən ümid edək ki, Allahın köməyi ilə

tezliklə Azərbaycanın paytaxtı Bakıda Təsis yığıncağında görüşəcəyik. Yaşasın Azərbaycan! Yaşasın Türk xalqı!".

Cümhuriyyət hökumətinin Gəncədə fəaliyyətə başladığı dövrə aid bir sıra məsələlər bu günə qədər də müəmmalı və gizli qalır. Belə ki, əgər həqiqətən Nuru paşa Azərbaycanın daxili işlərinə qarışmırdısa, onda necə olur ki, onun müşaviri Ə.Ağaoğlu Milli Şuranı buraxaraq, geniş hüquqlar verilmiş hökumət yaradılmasını təklif edirdi? Əgər türklər Azərbaycanın daxili işlərinə qarışmırdısa, onda Tiflisdə yaradılmış ilk Cümhuriyyət hökumətinin tərkibində olan hərbi nazir vəzifəsi Gəncədə yaradılan hökumətdə nəyə görə yoxa çıxdı və türk ordusu Azərbaycandan gedənə qədər Cümhuriyyət hökumətində bu vəzifə olmamışdı? Azərbaycan milli korpusu türk orduları ilə birləşdirilərək Türk Qafqaz İslam Ordusu içərisində əridildi. F.X.Xoyski hökumətinin yaradılmasının ertəsi günü, yəni iyun ayının 18-də hələ hökumət nazirləri arasında vəzifə bölgüçü aparılmadan keçirilmiş iclasda təcili olaraq Mərkəzi Avropa İttifaqı ölkələrinin İstanbulda olan nümayəndələri ilə danışıqlar aparmaq adı ilə M.Ə.Rəsulzadənin sədrliyi, X.Xasməmmədov və A.Səfikürdskinin üzvlüyü ilə Türkiyəyə nümayəndə heyəti göndərmək barədə qərar qəbul olunmuşdur. Habelə iyunun 21-də Azərbaycan Cümhuriyyətinin rəsmi bayrağının Türkiyə bayrağı ilə eyni rəngdə təsdiq olunması və fərqin yalnız qırmızı fonda ay və ulduz 5 guşə deyil, 8 guşə olması ilə fərqlənir və s. Digər tərəfdən, iyunun 17-də keçirilmiş Milli Şuranın iclaslarındakı müzakirələrdən də aydın olur ki, o dövrdə Müstəqil Azərbaycan Cümhuriyyətinin yaradılması tərəfdarlarının əksinə olaraq Azərbaycanın bir əyalət kimi Türkiyəyə birləşdirilməsinin tərəfdarları da var idi. Məsələn, Zaqatala dairəsi adından çıxış edən Aslan bəy Qardaşov onların Azərbaycanı Türkiyəyə birləşdirməyin tərəfdarı olduqlarını bildirir (sən. №29).

Gəncədə F.X.Xoyskinin yaratdığı yeni hökumət çox çətin və məsuliyyətli bir zamanda başladı. Onun gördüyü işlərin əhatə dairəsi çox geniş idi. Ümumiyyətlə Bakıya köçürülənə qədər Azərbaycan Cümhuriyyəti hökuməti Gəncədə ölkənin siyasi və iqtisadi həyatı, anarxiyanın aradan qaldırılması, dəmir yollarının bərpası, ölkənin ayrı-ayrı bölgələri arasında poçt-teleqraf əlaqələrinin yaradılması işində və sair sahələrdə bir sıra mühüm tədbirlər həyata keçirilmişdi. Cümhuriyyət hökumətinin başlıca vəzifələrindən biri ölkənin siyasi, iqtisadi və mədəni mərkəzi olan Bakı şəhərini 1918-ci il iyulun axırlarında süqut etmiş Bakı kommunasından sonra şəhəri ələ keçirmiş eser-menşevik və daşnak nümayəndələrindən ibarət "Sentro-kaspi diktaturası"ndan təmizləmək idi. Qızğın döyüşlər nəticəsində 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusu tərəfindən Bakı azad edilir. Sentyabrın 17-də F.X.Xoyski hökuməti Gəncədən Bakıya köçür. Bakı Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı elan olunur.

***

1918-ci il iyunun 17-də Gəncədə öz fəaliyyətini dayandırmış Azərbaycan Milli Şurası həmin il noyabrın 16-da Bakıda öz işini yenidən bərpa edir (sən. №30). İclası qısa giriş nitqi ilə açan M.Ə.Rəsulzadə bildirir ki, "bu gün Azərbaycan Şurai-Millisi Azərbaycanın baş və ayrılmaz bir əzasını təşkil edən paytaxtında açılır... Şurai-Milli Gəncədə ictima edərək əhvali fövqəladəyi nəzərə alaraq, müvəqqətən səhneyi-siyasətdən çəkilmiş idi. Bu gün Şurai-Milli yenidən dəvət edilib müqəddərati-məmləkəti kəndi əlinə alıyor". Sonra öz nitqində M.Ə.Rəsulzadə bildirir ki, "doğrudur Milli Şuramız Məclisi-Müəssisan əsası ilə tamam xalq tərəfindən seçilmiş bir Şura deyildir... Bugünkü Milli Şuramız parlaman surəti almaq üçün genişlənəcək və oraya əhalinin hər qismindən müqəddəratını Azərbaycanın müqəddəratı ilə bağlamış, Azərbaycanın şadlığı ilə şadlanan və qəmginliyi ilə qəmgin olan bütün millətlərin nümayəndələri cəlb olacaqdır. O zaman tam bir parlamana malik olacayız".

Sonra iclasda çıxış edən Azərbaycan Cümhuriyyəti hökumətinin sədri F.X.Xoyski Milli Şura üzvlərinə müraciət edərək bildirir ki, hökumətin Müəssislər Məclisi çağırmaq üçün hazırlıq işinə vaxtı çatmadığından xahiş edir ki, Milli Şura bu işi öz öhdəsinə götürsün. Milli Şura həmin təkliflə razılaşır.

1920-ci il noyabrın 20-də M.Ə. Rəsulzadənin sədrliyi ilə Bakıda keçirilən 2-ci iclasda isə (sən. №31) Milli şura "müvəqqəti Azərbaycan parlamanı (Məclisi Məbusan) təşkili haqqında Qanun layihəsi"ni geniş müzakirə edir. Milli Şuranın həmin iclasında qeyd olunur ki, hələ 1917-ci ilin axırlarında Cənubi Qafqaz müsəlman partiyaları tərəfindən Rusiya Məclisi Müəssisanına ümumi səsvermə yolu ilə seçilmiş 14 nəfər müsəlman nümayəndələrinin siyahısı seçkilərdə iştirak etmiş partiyaların qazandıqları səslər müqabilində genişləndirilərək 44 nəfərə çatdırılmışdı. Azərbaycanda Məclisi-Müəssisan toplamağın qeyri-mümkün olduğunu görən Cənubi Qafqaz Mərkəzi Müsəlman Komitəsi bu məsələnin həllini Zaqafqaziya Seymində Azərbaycanı təmsil etməkdə gördü. Çünki bu nümayəndələr Zaqafqaziyadakı müsəlman əhalisi arasındakı müxtəlif siyasi cərəyanları təmsil edirdi və bir milyondan yuxarı müsəlman əhalisinin səslərini qazanmış nümayəndələr idi. Ona görə də Zaqafqaziya seymi və Zaqafqaziya Cümhuriyyəti hökuməti öz işinə xitam verdikdə Zaqafqaziya Seymindəki 44 müsəlman nümayəndələri özlərini Azərbaycan Milli Şurası elan etmiş və Azərbaycanın idarəsini öz üzərlərinə götürmüşdü.

Milli Şuranın 20 noyabr tarixli iclasında qcyd olunurdu ki, Azərbaycan yalnız azərbaycanlılarla məskunlaşmamışdır. Ona görə də Azərbaycan Milli Şurası Azərbaycan ərazisində yaşayan bütün millətləri təmsil etməlidir. Hazırda Milli Şurada olan 44 nəfər nümayəndə onları təmsil etmir. Digər tərəfdən, müxtəlif siyasi partiya nümayəndələrindən başqa, Azərbaycan xalqının müxtəlif təbəqələrinin nümayəndələrinin də belə bir təşkilatda təmsil olunmalarına böyük ehtiyac vardır.

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan Milli şurası Azərbaycan Parlamentinin təsisi haqqında 1918-ci il noyabr ayının 20-də qanun qəbul edir. Qəbul olunmuş həmin qanunda göstərilirdi ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra Azərbaycan Milli Şurası milli bir idarə formasından dövlət idarəsi forması almışdır. Lakin Azərbaycanın əhalisi təkcə türklərdən ibarət deyil. Ona görə də Azərbaycan Milli Şurası bu ərazidə yaşayan bütün millətləri təmsil etməlidir. Bunun vacibliyini həm Azərbaycan Milli Şurası və həm də hökuməti yaxşı başa düşür. Qanunda göstərilirdi ki, Azərbaycan ərazisinə Bakı və Gəncə quberniyaları, Zaqatala dairəsi, İrəvan və Tiflis quberniyalarının bir hissəsi daxildir. Bu ərazi üzərində Qafqaz təqviminə görə tam rəqəmlə 2.750.000 nəfər əhali var. Onlardan 1.900.000 nəfəri müsəlman, 500.000 nəfəri erməni, 230 nəfəri rusdur. Hər nümayəndə üçün 24000 əhali nəzərə alınarsa müsəlmanlardan - 80, ermənilərdən - 21 və ruslardan - 10 nümayəndə seçilməlidir. Alman və yəhudilərin isə hərəsindən bir nümayəndə seçilməlidir. Qanunda göstərilirdi ki, 44 Milli Şura üzvü ümumi səsvermə yolu ilə seçildiyi üçün mexaniki olaraq parlamentə üzv keçirilir. Qalan 36 nəfər isə müxtəlif şəhər və qəzalar arasında bölünür.

Erməni əhalisinin 21 nəfər nümayəndəsindən 8-i Gəncə, 8-i Şuşa və 5-i Bakı erməni Milli Şuralarından, rus əhalisinin 10 nəfər nümayəndəsi isə rus Milli Şurası tərəfindən təklif edilməli idi. Alman və yəhudilərdən başqa, gürcü və polyak əhalisinə də hərəsindən 1 nümayəndə seçmək hüququ verilirdi (Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti, 1-ci cild, səh. 31-32).

Azərbaycan Parlamentinin çağırılması ilə əlaqədar Azərbaycan Milli Şurası 1918-ci il noyabrın 29-da "Bütün Azərbaycan əhalisinə!" müraciət qəbul edir. Müraciətdə deyilirdi: "Milli Şura dekabrın 3-nə qədər 120 əzalıq bir Məclisi-Məbusan (Parlament) halına gələcəkdir. Bu məclisə azlıqda qalan millətlərdən nümayəndələr cəlb olunduğu kimi məmləkətin vilayətlərindən də vəkillər çağırılmışdır. Bu sürətlə yığılacaq Məclisi-Məbusan irəlidə ümumi intixab üsulu ilə Azərbaycan Məclisi-Müəssisanı yığışıncaya qədər yurdumuzun sahibi olacaq, onun müqəddəratını həll, hökumətini təşkil və mənafeini müdafiə edəcək...". (ARDA: f. 895, siy. 1, iş 25, vər. 3-5).

1918-ci il noyabrın 17-də general V.Tomson Bakıya gəldikdən sonra generalla Azərbaycan Cümhuriyyəti hökuməti arasında intensiv danışıqlar aparılır. Rusiyanın müttəfiqi olan İngiltərə Sovet Rusiyasına qarşı mübarizənin təşkilində iştirak etməklə yanaşı, Denikin, Kolçak və Yudeniçin hərəkətlərini hərtərəfli dəstəkləyirdi. Bakıya gələn V.Tomson Azərbaycan Cümhuriyyəti hökumətindən tələb edir ki, o Bakıdakı Rus Milli Komitəsi ilə yaxınlıq etsin. Rus Milli Komitəsi isə "Rusiyanın birliyi və bütövlüyünü, Rusiya Məclisi-Müəssisanını və Ufadakı A.Kolçak hökumətini qəbul etməyi və tanımağı tələb edirdi. Bu məsələləri müzakirə etmək üçün 1918-ci il noyabrın 24-də axşam Azərbaycan Milli şurasının qapalı iclası keçirilir (sən. №32). Bu məsələ barədə məlumat verən hökumətin sədri F.X.Xoyski demişdir: "Ümumrusiya Məclisi-Müəssisanı qəbul etmək

mümkün olsa da, gərək Azərbaycan gələcək sülh konfransına da öz nümayəndələrini göndərsin. Ufa hökumətini isə hələlik qəbul etmək mümkün deyil. Çünki onun necə təşkili və kimlərdən ibarət olduğu məlum olmadığından, o hökuməti qəbul etmək də qeyri-mümkündür".

F.X.Xoyski sözünə davam edərək bildirir ki, hökumət üzvlərinin əksəriyyətinin rəyi belədir ki, Rusiyanın Məclisi-Müəssisan məsələsini bu şərtlə qəbul etmək olar ki, Rusiyada törəyən qeyri-millətlər də iştirak etsinlər.

Milli Şura üzvləri - Əkbərağa Şeyxülislamov, Aslan bəy Səfikürdski, Teymur bəy Makinski, Nəsib bəy Yusifbəyli, Abasqulu Kazımzadə, Məmməd Həsən Hacınski, Məmməd Əmin Rəsulzadə və başqaları da çıxış etdilər. Hərə bu məsələ barədə öz təklifini irəli sürür. Ümumi rəy isə belə olur ki, "Azərbaycanın əhvalı gələcək ümumi konfransda həll olunsun".

Bu məsələ ilə əlaqədar M.H.Hacınskinin təklif etdiyi qərar layihəsində dəyişiklik edən hökumətin sədri F.X.Xoyski onu aşağıdakı redaktədə təklif edir: "Milli Şura Rusiya ərazisinin bölünməzliyi prinsipini tanıyaraq, üzvlərinin və ictimai xadimlərin yığıncaqlarının təkliflərini nəzərə alaraq belə hesab edir ki, 1) Azərbaycanın siyasi vəziyyəti və dövlət quruluşu məsələsi qəti olaraq Ümumi Sülh Konfransında həll olunsun; 2) Haliyyədə Azərbaycanda mövcud olan faktiki idarə sistemi olduğu kimi öz qüvvəsində qalır; 3) Əgər Ümumrusiya Müəssislər-Məclisi Rusiyada öz müqəddəratını təyin etmiş bütün millətlərin nümayəndələri ilə Ümumi Sülh Konfransında iştirak edərsə, onda Azərbaycan da orada iştirak edəcək və orada öz müqəddəratının təyini məsələsində öz prinsipləri üzərində təkid edəcəkdir".

1918-ci il noyabr ayının 26-da M.Ə.Rəsulzadənin sədrliyi ilə Milli Şuranın növbəti gizli iclası keçirilir (sən. №33). İclasda Milli Şuranın üzvü M.H.Hacınskinin Xəzər-Qafqaz hökuməti təşkil etmək istəyən sol eserlərlə danışıqları barədə məruzə edir. Məruzədən məlum olur ki, məsələlərə yanaşma prinsiplərində böyük əksiklik olduğundan belə bir hökumət yaratmaq üçün ümumi dil tapmaq mümkün olmayıb. Sağ eserlərin yeni yaratmaq istədikləri hakimiyyət qurumuna Azərbaycanın daxil olması üçün: "1) Azərbaycan Ufa hökumətinin hakimiyyətini tanımalı; 2) Rusiyanın bölünməzliyini və Rusiya Müəssislər-Məclisinin vahidliyini tanımalıdır". İclas qeyd edir ki, bu şərtlər Şuranın noyabrın 24-də qəbul etdiyi qətnamədəki prinsiplərə tamamilə ziddir.

Sonra Rus və Erməni Milli Şuraları ilə apardığı danışıqlar barədə F.X.Xoyski məlumat verərək bildirir ki, Rus Milli Şurası ilə apardığımız danışıqlar uğursuzluqla başa çatdı. Onun məlumatına görə, Erməni Milli Şurasının nümayəndələri Ter-Azarov və Manandyanla söhbətlərimiz nisbətən müvəffəqiyyətli olmuşdur. Onlar 24 noyabr iclasının qərarı əsasında yaradılacaq parlament və hökumətə Rus Milli Şurasının bu işə münasibətindən asılı olmayaraq daxil olmağa hazır olduqlarını bildirmişlər.

Yuxarıda göstərilən qurumlarla danışıqlar tam şəkildə başa çatdırılmadığı üçün Milli Şura sağ eserlərlə danışıq aparmaq məqsədilə Ə.Şeyxülislamov, Ə.S.Pepinov və C.Hacınskidən ibarət xüsusi komissiya yaratmaq barədə qərar qəbul edir. F.X.Xoyski və M.H.Hacınskiyə isə tapşırılır ki, onlar rus və erməni Milli Şuraları ilə danışıqları son nəticəyə qədər davam etdirsinlər. Habelə, tövsiyə olunur ki, daha yaxşı olardı ki, bu məsələ barədə Azərbaycanda yaşayan rus əhalisini daha dolğun təmsil edən Slavyan-Rus Cəmiyyətinə müraciət edilsin.

İclasın sonunda isə Azərbaycanın müstəqilliyi barədə məlumat vermək və bu ideyanın müdafiəsi məqsədi ilə Avropa və Amerika ölkələrinə göndəriləcək Parlament nümayəndə heyətinin əsasnamə layihəsi də müzakirə olunur.

1918-ci il dekabrın 1-də M.Ə.Rəsulzadənin sədrliyi ilə Milli Şuranın növbəti gizli iclası keçirilir (sən. №34). Qısa məruzə ilə çıxış edən hökumətin sədri F.X.Xoyski əyalətlərdə parlamentə seçkilər barədə məlumat verərək bildirir ki, demək olar ki, hər yerdən seçilmiş nümayəndələr də dekabrın 3-nə gəlib çata bilərlər. Lakin bu gün peyğəmbər Məhəmməd Əleyhissalamın - hüzür gününə düşdüyü üçün parlamentin ilk iclasının açılışını dekabrın 7-nə keçirməyi təklif edir. Təklif yekdil səslə qəbul olunur.

Sonra F.X.Xoyski general V.Tomsonla görüşünün nəticələri barədə məlumat verir. O, qeyd edir ki, bizim noyabrın 24-də qəbul etdiyimiz qətnamə ilə tanış olan V.Tomson çox razı qaldı. O, bu cür qətnamədən sonra Rus Milli Şurasının tələbinin həddindən artıq olduğunu, Rus Milli Şurasının böyük səhv buraxdığını, tez bir zamanda onların öz səhvlərindən peşman olacaqlarını qeyd etdi. Görüş zamanı general V.Tomson Azərbaycan hökumətinə xeyirxah münasibətini bildirdi və bizim təşəbbüslərimizi bəyənərək daxili işlərimizə qarışmayacağını vəd etdi.

Həmin iclasda F.X.Xoyski məlumat verir ki, rus Milli Şurası Azərbaycan parlamentinə qatılmaqdan imtina etdiyi üçün, bizim parlamentə daha güclü siyasi qüvvə olan və Azərbaycandakı rus əhalisinin əksəriyyətini təşkil edən Slavyan-Rus Cəmiyyətindən müraciət daxil olub. Bu müraciətin müzakirəsindən sonra iclasa sədrlik edən M.Ə.Rəsulzadə Slavyan-Rus Cəmiyyətinin Parlamentə qəbulu məsələsini səsə qoyur və təklif səs çoxluğu ilə qəbul olunur (sən. №34).

Azərbaycan Milli Şurasının son iclası 1918-ci il dekabrın 3-də axşam saat 8-də hökumət üzvlərinin iştirakı və M.Ə.Rəsulzadənin sədrliyi ilə keçirilir (sən. №35). Hökumətin sədri F.X.Xoyski general V.Tomsondan elə həmin gün saat 2-də aldığı məktubun məzmununu Milli Şura üzvlərinə açıqlayır. V.Tomson öz məktubunda tələb edirdi ki, "koalisiyalı hökumətin tərkibi elan olunmayınca Bakıda parlamentin iclası keçirilə bilməz".

F.X.Xoyski bu məktubla bağlı hökumətin atdığı addımlar, general V.Tomsonla aparılan danışıqlar barədə də geniş məlumat verir. Fətəli xanın məlumatına görə, təkcə Azərbaycan Parlamentini istəməyən ruslar və ermənilər deyil, həm də bütün vasitələrdən istifadə edən bir sıra müsəlmanların özləri

tərəfindən də Azərbaycan Milli Şurasının V.Tomsonun gözündən salmağa və onun yanında Şuranın rolunu heçə endirməyə çalışırlar. Bununla əlaqədar olaraq iclas iştirakçıları arasında təşviş və etirazlar bildirilir və tələb edirlər ki, həmin cənabların adları elan olunsun. V.Tomsonla söhbətləri barədə məlumatı davam etdirən F.X.Xoyski bildirir ki, o, qəti şəkildə generala hökumətin təşkilinin parlament yolu ilə formalaşdırlması prinsipi üzərində israr edir və göstərir ki, yalnız xalqın əsas hissəsi tərəfindən seçilmiş qanunvericilik orqanının verdiyi səlahiyyət ilə seçilmiş hökumət həmin orqana arxalanmalı və onun qarşısında hesabat verməlidir. F.X.Xoyski bildirir ki, nəhayət ki, bu nöqteyi-nəzərlə general V.Tomsonda razılaşır.

General V.Tomson təklif edir ki, bu koalision hökumətdə 5 nəfər azərbaycanlı və 5 nəfər isə azlıqda qalan qeyri millətlərin (3 rus və 2 erməni) nümayəndələri olmalıdır. Bu cür bölgünün düzgün olmadığı və ədalətsiz olduğunu V.Tomsonun nəzərinə çatdıran F.X.Xoyski ölkədə müsəlmanlar mütləq çoxluğu təşkil etdiyi üçün 7 azərbaycanlı, 3 erməni və 2 rus və ya 8 azərbaycanlı, 3 erməni və 3 rusdan ibarət hökumət təşkil etməyi təklif edir. Tomson bu təkliflərin hər hansı birinin olması şərti ilə deyilənlə razılaşır.

Bu danışıqlar zamanı F.X.Xoyskinin Parlament xaricində yeni hakimiyyət yaratmaq olarmı sualına V.Tomson belə cavab verir: "Bəli, mənə hökumət təşkil edə biləcək iki nəfərin adını göstəriblər; bunlar Mirzə Əsədullayev və M.H.Hacınski idi, özü də mənim yeni hökuməti təşkil etmək təklifimə cavab olaraq M.Əsədullayev fikirləşmək üçün iki gün vaxt istədi. Bu şəxslər haqqında təklifi ermənilər də etdilər".

Bu yolla yaradılacaq hökumətə xalqın etimadına öz münasibətini V.Tomsona bildirən F.X.Xoyski qeyd edir ki, bu cür hakimiyyətə xalqın münasibətinin necə olacağı barədə gərək generalın özü də düşünsün. Fətəli xanın etirazı ilə razılaşan V.Tomson öz fikrindən imtina edir. Fətəli xan bildirir ki, bir sıra başqa məsələlər barədəki söhbətindən sonra general Parlamentin işini tamamilə müdafiə edəcək və onun açılacağı gün baş verəcək hər hansı bir xoşagəlməz tədbirin qarşısını alacaq.

Məlumat üçün daxili işlər naziri Behbudağa Cavanşir bildirir ki, dekabrın 2-də günün axırında M.Əsədullayevi general öz yanına çağırıb. Bu barədə məlumatı bu gün saat 7.30-da Tağıbəy Səfərəliyevdən öyrənmişəm. B.Cavanşirin dediyinə görə, M.Əsədullayev V.Tomsonla 2 saat söhbət edib və Nazirlər Şurasının sədrliyinə qeyri-müsəlman təklif olunub. M.Əsədulayevə hökumət təşkili təklifi barədə o, B.Cavanşirə heç nə deməyib. B.Cavanşirin sözlərinə görə. Milli Şuraya əhalinin bir sıra ünsürləri tərəfindən etimad göstərilmir, Şurada ifrat ünsürlər yoxdur.

M.Y.Cəfərovun "Sizin generalla söhbətiniz vaxtı koalisiyalı hökumət zamanı Azərbaycanın müstəqilliyi tanınacaqmı? Əgər Parlament yaradılmamışdan əvvəl hökumət təşkil olunarsa, Parlamentin taleyi necə olacaq?" sualına

F.X.Xoyski cavab verir ki, birinci məsələ Azərbaycanın müstəqilliyinin tanınması məsələsi açıq qaldı. Koalisiyalı hökumət yaradılacağı halda, general rusları və erməniləri Parlamentin işində iştirak etməyə məcbur edəcəyini bildirdi. Sonda iclasda iştirak edən "İttihad", "Hümmət", "Müsavat" və "Sosialistlər blokunun nümayəndələri 8, 3 və 3 nisbəti və ya 7, 3 və 2 nisbəti ilə hökumət təşkilinə razılıqlarını bildirirlər. Habelə, onlar V.Tomsonun Parlamentin öz işinə başlamazdan əvvəl koalisiyalı hökumət təşkili barədə təklifini yazılı şəkildə geri götürülməsini təklif edirlər.

Sonra özü barəsində çıxış edən M.H.Hacınski bildirir ki, "Tomsonun məlumatına görə iki şəxs - mən və M.Əsədullayev hökumət təşkil edə bilərik. Yoldaşlardan xahiş edirəm ki, mənim səmimiyyətimə inansınlar ki, mənim bu işdə heç bir iştirakım yoxdur. Yəqin ki, bunu ermənilər deyil, Mirzə özü deyib. Dünən X.Sultanov və B.Cavanşirin iştirakı ilə yemək vaxtı Mirzə mənə dedi ki, sən də hökumət təşkil edə bilərsən. Mən bu təklifı qətiyyən rədd etdim. O, qeyd edir ki, Mirzə də şəxsən ona deyib: Fətəli xan hökumət sədrliyinə birinci namizəddir və V.Tomson qarşısında da o, təkid edib ki, Fətəli xan hökumətin sədri olsun".

Parlamentin nə qədər fəaliyyət göstərəcəyi barədə daxili işlər naziri B.Cavanşirin verdiyi suala cavab olaraq Milli Şuranın sədri M.Ə.Rəsulzadə bildirib ki, "Parlament qanunvericilik orqanı kimi Müəssislər-Məclisi çağrılana qədər fəaliyyət göstərəcək və hökumət onun qarşısında hesabat verəcək. Təəccüb edirəm ki, hökumətin üzvü belə bir fikir söyləyir".

Yuxarıda yazılanlardan və deyilənlərdən də göründüyü kimi, Azərbaycan Xalq Cümhuriyyətinin qanunvericilik orqanı olan Azərbaycan Cümhuriyyəti Parlamentinin yaradılması işi asanlıqla başa gəlməmişdir. O, xalqımızın azadlığı, dövlət müstəqilliyi uğrunda canlarından belə keçmiş şəxslərin xarici düşmənlər və daxili əleyhdarlara qarşı apardıqları gərgin mübarizə nəticəsində yaranmış və təşəkkül tapmışdır.

Dekabrın 7-də Azərbaycan Cümhuriyyəti Parlamentinin öz işinə başlaması ilə əlaqədar olaraq Milli Şura öz fəaliyyətinə xitam vermişdir.

* * *

Son illər Azərbaycan Xalq Cümhuriyyəti tarixinin öyrənilməsinə diqqət artsa da, Zaqafqaziya Seymindən Azərbaycan Cümhuriyyəti Parlamentinin yaranmasına qədər olan dövr tarixi ədəbiyyatda özünün geniş əksini tapmamışdır. Xüsusilə, Zaqafqaziya Seymində Müsəlman fraksiyasının və Azərbaycan Milli Şurasının fəaliyyəti geniş oxucu kütləsi üçün ətraflı açıqlanmamışdır. Arxivlərimizdə həm Zaqafqaziya Seymində Müsəlman fraksiyasının, həm də Azərbaycan Milli Şurasının iclas protokolları mühafızə olunur. Bu protokollar Zaqafqaziya Seymində və Azərbaycan Milli Şurasında xalqımızın qabaqcıl oğulları və ideya sahiblərinin Azərbaycan müstəqilliyi uğrunda gərgin mübarizəsinin bilavasitə şahididir. Bu protokollar onların xalqımızın qəhrəmanlıq tarixində apardıqları mübarizə və çəkdikləri zəhməti əyani şəkildə sübut edir.

Məlum olduğu kimi, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin arxivlərimizdə mühafizə olunaraq bizə çatmış protokolları və stenoqrafik hesabatları Milli Arxiv İdarəsi tərəfindən hazırlanıb nəşr edilərək, tədqiqatçıların və elmi ictimaiyyətin istifadəsinə verilmişdir.

Milli Arxiv İdarəsi Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şurasının protokollarını da nəşrə hazırlayaraq tədqiqatçıların və elmi ictimaiyyətin istifadəsinə verməyi özünə borc bilir.

Həmin nəşrə Zaqafqaziya Seyminin Müsəlman fraksiyası, Zaqafqaziya Mərkəzi Müsəlman İttifaqı və Azərbaycan Milli Şurasının iclaslarının ümumilikdə 35 protokolları və onlara əlavələr daxil edilmişdir.

Protokollar əsasən rus dilində aparılıb. 30-31-32 №li üç protokol isə Azərbaycan dilində aparılıb. Onlar ərəb qrafikasından latına keçirilmişdir.

Arxeoqrafik tərtibat tarixi sənədlər üçün nəşr qaydalarına müvafiq olaraq məzmuna toxunmadan mətnin əslinin stilistik xüsusiyyətlərini qoruyaraq müasir orfoqrafiya qaydaları ilə yazılmışdır.

Tamamlanmamış sözlər və ya sözlərin hissələri aydın olduqda mötərizəsiz kvadratda, əks halda mötərizəli kvadratda tamamlanmış halda göstərilmişdir.

İclasların protokolları əsasən Azərbaycan Respublikası Dövlət Arxivində (ARDA) saxlandığından onun adı təkrar olunmur.

1918-ci il martın 16-dan dekabrın 3-nə qədər olan protokollar eyni xronoloji dövrə aid olduğu üçün başlıqlarında il göstərilməmiş, xronoloji ardıcıllıqla sıralanmışdır.

İclas iştirakçılarının partiya mənsubiyyətləri yalnız ilk dəfə adları çəkildikdə göstərilmişdir.

Elmi-məlumat aparatına qeydlər, əlifba, coğrafi göstəricilər və ixtisar olunmuş sözlərin siyahısı daxildir. Sənədlərin mətninə dair qeydlər sətiraltı qeydlərdə göstərilmişdir. Mətndə rəqəmlərlə göstərilən mündəricata aid qeydlər isə məcmuənin sonunda verilmişdir.

Protokollar əsasən rus dilində olduğundan rus dilindən istifadədə çətinlik çəkən oxucular üçün Azərbaycan dilindəki müqəddimədə onların məzmunu daha geniş verilmişdir.

Sənədlər çapa Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin əməkdaşları A.Ə.Paşayev, F.A.Aslanova, M.C.Eldarova tərəfindən hazırlanmışdır.

# ПРЕДИСЛОВИЕ

За последние годы в современном общественном сознании пробудился глубокий интерес к подлинной истории Азербайджана, особенно к тому периоду, когда функционировала Азербайджанская Демократическая Республика. Однако период от Закавказского сейма до образования Парламента Азербайджанской Республики в исторической литературе широко пока не освещен.

Воссоздание во всей полноте драматической и в то же время знаменательной страницы национальной истории позволяют протоколы заседаний мусульманской фракции Сейма и Азербайджанского Национального Совета, которые хранятся в наших архивах.

С победой Февральской революции, в первые же дни, именно 9 марта 1917 г., по инициативе Закавказских депутатов Государственной думы, постановлением Временного Правительства был образован из членов Государственной думы Особый комитет («Озаком») для управления Закавказьем под председательством В.А.Харламова, в составе М.Ю.Джафарова, М.И.Пападжанова и А.И.Чхенкели. Особый Закавказский Комитет окончательно образовался 30 марта 1917 г., а 15 ноября 1917 г. учреждается краевой правительственный орган - Закавказский комиссариат.

С установлением власти большевиков в центре России, когда выяснилось, что Закавказье избрало иной путь в управлении краем, было признано необходимым образовать местную власть. В связи с этим на заседании, когда краевые центры при участии национальных организаций образовали Озаком, было решено до созыва Всероссийско-учредительного собрания созвать Закавказский сейм из списков Учредительного собрания.

14 февраля 1918 г. был избран Закавказский сейм, которому вручил всю полноту власти Закавказский комиссариат. 23 февраля в Тифлисе открылся Закавказский сейм - законодательный орган Закавказья. В его состав вошли депутаты, избранные от Закавказья во Всероссийское учредительное собрание. В Сейм дополнительно были кооптированы представители различных партий в соответствии с полученными ими голосами на выборах Учредительного собрания.

Закавказский сейм состоял почти исключительно из представителей трёх главных народностей Закавказья: азербайджанцев, армян и грузин.

В партийном отношении последние две из этих народностей были представлены очень однообразно; грузинский народ представляла фракция социал-демократическая, а армянский народ - «Дашнакцутюн». Азербайджанский же народ Закавказья представляли четыре партии - Тюркская демократическая партия федералистов «Мусават» и примыкающая к нему демократическая группа беспартийных, партия «Мусульманский

социалистический блок», «Мусульманство в России» («Иттихад») и социал-демократическая (меньшевистская) партия «Гуммет».

Таким образом, азербайджанцы, будучи представлены сразу четырьмя партиями, очутились в невыгодных условиях в той националистической борьбе закавказских народов, которая предстояла в Сейме в условиях закавказской действительности. Будучи раздробленным в партиях, азербайджанский народ становится стороной наименьшего сопротивления перед сплоченными в единых партиях силами своих соседей.

Закавказский сейм был создан по партийному принципу, а не национальному, однако с первых же заседаний там образовывается (хотя не официально) по числу представленных народностей три национальных сектора: армянский, грузинский и мусульманский.

Несмотря на старание представителей этих секторов путем выступлений только от имени партии (а не национальностей) всячески скрывать друг от друга наличие национальных группировок в Сейме, чтобы этим закруглить острые углы национальных отношений, всё же попытки их оставались тщетными, и впоследствии Закавказский сейм распадается именно на почве столкновений национальных интересов представленных там народностей.

Трудность согласования слишком переплетающихся интересов трех главных народов Закавказья видна была с самого начала совместной работы в Сейме, и на этой почве ожидалась глухая националистическая борьба между ними.

